Yeqzar Cəfərli

# UÇURUM

*(hekayələr)*

«Nurlan»
Bakı - 2012

*Redaktor və ön sözün müəllifi:*
**Əkbər Qoşalı**

**Yeqzar Cəfərli. Uçurum *(hekayələr)*.**
**Bakı, "Nurlan", 2012, 108 səh.**

$C\frac{4702000000}{N098-2012}$ ***qrifli nəşr***

**© «Nurlan», 2012**

## *İNANIRAM*

*"Uçurum"!* – Bu, gənc dostumuz **Yeqzar Cəfərli**nin sayca ikinci kitabıdır. O, yaradıcılığa ədəbiyyatın ən mürəkkəb sahəsi olan ədəbi tənqiddən başlayıb. Bilirsiniz – yazarlar yaradıcılığa "*istedadın üzə çıxmasının ən qolay yolu*" sayılan şeirlə başlar, bu da olmazsa kiçik hekayələrlə başlarlar adətən. Ancaq Yeqzar hələ III kurs tələbəsiykən böyük ədəbiyyatçı alim **Əli Fəhmi** haqqında araşdırmalar aparmış, 2011-ci ildə *"Adiloğlu"* nəşriyyatında ***"Əli Fəhmi dünyası"*** monoqrafik kitabını çap etdirmişdir. Bununla da yetinməyən gənc yazar respublika mətbuatında ardıcıl olaraq öz publisistik və tənqidi yazıları ilə çıxış etməkdədir. *"Heç şübhəsiz, önəmli iş görmüsən, lakin bunlar sənin sırf öz yaradıcılığın deyil, yaradıcılıq(lar) haqqında yaradıcılığındır. Sən ya şeir ya da hekayə ilə başlasaydın yaxşı olardı. Səndə elmi-publisistik üslub güclü olsa da (necə deyərlər) bədii üslubu gücləndirmən, gəlişdirmən gərəkdir"* – şəklində mən də, başqa dostlarımız da ona müəyyən önərilərdə bulunmuşduq. Hətta onun indiyə qədər gördüyü işləri, müəyyən anlamda *Sizif əməyi* sayanlar da olmuşdur. Lakin Yeqzar, Anadolular demiş, *hər şeyə inad* yazır, yazır, yenə də yazır. Nə yaxşı, yaza yaza hekayələr yazmağa da başladı. – İndi "yaxşı" deyirəm, ancaq ilk hekayəsini

oxuduğumda belə deməmişdim, təbii, heç indi də onun *hekayələr yazarı* kimliyi ilə, *nasir kimliyi* ilə tanınmasını istəmirəm, – "yaxşı"nı o anlamda deyirəm ki, Yeqzar ensiklopedik, monoqrafik miqyasdan yaşına daha uyğun miqyasa endirim edir... Ümidvaram, bu endirimin ardınca o, hətta bir müddət qələmi dincə qoymalıdır. Mənim tanıdığım **Yeqzar Cəfərli** zatən ədəbiyyat üçün doğulub, yaradıcılıq üçün doğulub, ədəbiyyat (şünaslıq) elmi üçün doğulub. – Onun "qələmi dincə qoymaq" aşamasından sonrakı dönüşünün möhtəşəm olacağına inanıram.

Əziz oxucu, Yeqzarın bu kitabı, bədii nəsrdə ilk təcrübələri olan bu hekayələri həm yaradıcı axtarışlarının, həm də haqlı haqsız tənqidlərin, önərilərin məhsuludur.

**Yeqzar Cəfərli**ni biz daha çox yaxşı qələmi olan bir publisist, araşdırmaçı və tənqidçi kimi görmək istəyirik. Onun gərgin zəhmətlə araya-ərsəyə gətirdiyi ilk kitabı və son dövrlərdə respublika mətbuatında ard-arda çap olunan araşdırma və publisistik yazıları (eləcə də artıq hekayələri) bunu deməyə xeyli əsaslar verir. Məhz buna görə də Yeqzar "ön söz" yazmaq üçün *"Uçurum"*u mənə təqdim edəndə məmnuniyyətlə razılaşdım. Çünki artıq onun qələmi, *qələmdən irəli ürəy*i mənə yaxşı tanışdır, üstəlik də aramızda *yaş fərqinin çox üstündə* dostluq, *dostluq ərki* var. (Sevinirəm ki, gənc dostum haq-

qında ölkənin tanınmış bilim adamları, ədəbiyyatşünasları, tənqidçiləri də indiyədək ümid dolu sözlər söyləyiblər.)

Bu hekayələri oxuduqca aydınlaşır ki, gənc yazar hər bir yazara özgü keyfiyyət olan *həyat müşahidələri* aparır, şəxsən tanıq olduğu və ya ona başqaları tərəfindən söylənilən olayları bacarıqla bədiiləşdirir; aydın, oxunaqlı və şirin bir dillə, təhkiyə üsulu ilə oxucuya çatdırmağa çalışır. Bu hekayə əsas mövzusu gənc yazarı ən çox ağrıdan üzüntülərdir (üzüntüsə zatən ağrıdıcıdır – yetər ki, ürək ürək olsun – oda Yeqzarda..!). Örnəyi, xalqımızın ruhunu incidən biganəlik, tənbəllik, Qarabağ ağrısı, gənclərin böyük əksəriyyətinin Ərəseyə getməsi, gənc ailələrin sıxıntıları... bir sözlə, bu gün bizi rahatsız edən bütün üzüntülərdən, ağrılardan (ağırlıqlardan) söz açır Yeqzar... Yazar əksər hekayələrində işlədiyi mövzunun ruhuna uyğun olaraq atalar sözündən, kəlamlardan, zərbi-məsəllərdən yerində istifadə edir. Bu da onu göstərir ki, yazar hekayə yazmağa başlamamış bu işin sorumluluğunu dərindən dərk etmiş, bu amacla Azərbaycan klassikasını və çağdaş yazıçılarımızı, habelə dünya ədəbiyyatından bir çox örnəkləri oxumuş, hekayə türünün tələb etdiyi bütün keyfiyyətləri mənimsəmişdir.

Gənc yazar səylə çalışsa, böyük qələm sahibləri ilə yaradıcılıq ilişgiləri saxlasa, klassikadan bəhrələnsə onun nəsrin gözəl örnəklərini yarada biləcəyi-

nə ürəkdən inanıram. İnanıram ki, Yeqzar öz iç dünyasının, öz gözəl ürəyinin səsinə qulaq asmağı bacarır. Ona da inanıram ki, o ona yaraşan yazıları yazmaq yetənəyinə hər gələn (ötən) yaşda daha dərindən yiyələnəcək Yeqzar. Bizim də dost olaraq mənəvi borcumuz gənc istedadımıza qayğı göstərmək, onun yaradıcılıq hesabatlarını dinləmək, ona bacardığımız kimi kömək etməkdir.

İstedadlı gənc dostumuza yeni yaradıcılıq uğurları arzu edirəm! – Həm arzu edirəm, həm də inanıram!

Yeqzar, sənə kitabının adı ilə alqış etmək istəyirəm – görüm, *"Uçurum"* səninlə uğursuzluqlar, qaranlıqlar arasında uçurum yaratsın!..

**Əkbər QOŞALI**

## Kim bilir, bəlkə...

O yenə də qəmli-qəmli oturmuşdu. Ağacdan düşən payız yarpaqları bir-birini əvəzlədiyi kimi, yeniyetmə Yaşarın beynindəki fikirlər də yavaş-yavaş bir-birini əvəzləyirdi. Düşünürdü. Düşünürdü görəsən bütün gördükləri gerçək idimi? Doğrudanmı bu gün gördükləri onun hələ indi-indi zamanın əyriliklləri, amasızlığı ilə tanış olan, pis vərdişlərin necəliyini anlamağa yenicə öyrəşən beynində olmazın fikirlər formalaşdırmaqda idi. Bəlkə də. Anası ilə şəhərə çıxdığı vaxt Yaşarın gördüyü mənzərə vaxtilə-uşaq vaxtlarında evlərində gedən şirin söhbətləri, söylənilən dəyərli fikirləri bir növ əks olaraq onun fikirləri ilə toqquşdururdu.

Yaşar Londonda doğulmuşdu. Atası Mehman diplomat olduğundan ailəsini də özü ilə Londona aparmışdı. İndi artıq Yaşarın 15 yaşı vardı. Atası diplomatik fəaliyyətini başa vurduqdan sonra Bakıya qayıtmışdılar. Buna Yaşarın hər iki valideyni ürəkdən sevinmiş, “Uşaq öz vətənində təhsil alsa yaxşıdır”-demişdilər. Deyirdilər ki, doğma şəhərində oxuyar, adət-ənənələrimizi öyrənər. Artıq bir həftə idi ki, onlar Bakıya köçmüşdülər. Lakin şəhəri gəzib-dolaşmağa vaxt tapa bilməmişdi.

Dərs gününün başlanmasına sayılı günlər qalırdı. İlin bu vaxtları Bakıda xəzri külələri başqa vaxtla-

ra nisbətən tez-tez əsir. Və bu gün külək yenə də əsməkdə, ağacaları yüngülcə tərpətməkdə, fəvvarənin gurlayan sularını insanların uzunə çiləməkdə idi.

Yaşar ilk dəfə gördüyü doğma Bakını tanışlıq məqsədilə anası ilə birlikdə gəzintiyə çıxmışdı. Şəhəri dolaşa-dolaşa sanki xaricdə, başqa bir ölkədə olduğunu düşünürdü. Gözü ilə gördüklərini xəyalındakılarla müqayisə edirdi. Yaşar Bakını bir neçə dəfə televizorda görmüşdü, haqqında coğrafiyadan çoxlu məlumatlar toplamışdı. O hələ uşaq vaxtlarından "Coğrafiya"ya böyük maraq göstərirdi. O vaxtlar yaşının az olmasına baxmayaraq dünyanın demək olar, o, bütün dövlətlərin paytaxtlarını əzbərdən bilirdi. Hətta 3 yaşında ikən xəritədə balaca barmağı ilə atasının təhsil aldığı Novosibirsk şəhərini göstərərdi.

Anası soruşardı:

-Yaşar, atan harda oxuyur?

-Novskda.

-Göstər, görüm.

Yaşar balaca barmağını xəritədə Novosibirskin üstünə qoyardı.

İndi o, bir oturacağa əyləşib dərin fikrə dalmışdı:

Bu Bakı nə qəribə şəhərdir.

Lap bir neçə gün bundan qabaq o, Bakını tamam başqa cür təsəvvür edirdi Bu düşüncələrlə də o, ətrafa göz gəzdirir, insanları, dükanları, hətta ən

kiçik şeyləri belə beyninin süzgəcindən keçirirdi. Görəsən, öz doğma şəhərinə uyğunlaşa bilərmi? Özünə təzə dostlar tapa bilərmi? Onu ən çox narahat edən də sonuncu idi. Şəhərə uyğunlaşmağı uzun çəkəcək. Görəsən o xaricdəki dostları kimi dostları burada da tapa biləcəkdimi? Onu bu dərin düşüncələrdən anası ayırdı:

-Şəhərimiz nə qədər də gözəlləşib, abadlaşıb. Adam özünü Bakıda deyil, sanki Londonda hiss edir.

-Nə dedin, ana?

-Deyirəm, Bakı çox gözəlləşib.

-Düz deyirsən, ana, adam ozunu sanki başqa bir şəhərdə hiss edir. Deyəsən anası oğlunun sözlərindəki eyhamı başa düşmədi. Sözlərindən oğlunun məmnun qaldığını zənn edib, gülümsədi.

Yaşar yenidən dərin düşüncələrə daldı. Atasının işdən qayıtmağını səbirsizliklə gözləyirdi. Onun yeniyetmə varlığını didib-dağıdan sualların cavabını atasından soruşmaq istəyirdi. Saat 17-də evə qayıtdılar. Atası adəti üzrə divanda oturub qəzetləri bir-bir nəzərdən keçirirdi. Günün hadisələrini ayrıntılarına qədər birər-birər incələməsi onun adəti idi. Atası Yaşarı fikirli görüb qəzetləri əlindən bir qırağa qoyaraq, ona üz tutdu:

-Necədi, oğlum Bakı xoşuna gəldimi?

-Şəhər gözəl şəhərdir, ata, amma bura Londondan çox az fərqlənir. Əksər reklamlar ingiliscə ya-

zılıb. Doğma dilimizdə danışan adamlara isə çox az rast gəldim.

Atası:

-Yaxşısı budur sən beynini bu cür fikirlərlə məşğul etməyəsən. Bundan belə bu cür hallarla tez-tez qarşı-qarşılaşacaqsan.

Atasının cavabı onun bütün şübhələrini alt-üst etdi. Artıq bütün bunların bir gerçəklik olduğunu dərk etmək lazım idi. Amma görəsən o, bütün bunlara alışa biləcəkdimi? Yaşar Londonda təhsil alsa da doğma ölkəsini çox sevirdi; bütün bu sözləri dinlədikdən sonra öncəki fikirlərində doğru olduğunu yəqin etdi. Atasının məsləhətlərinə baxmayaraq bu fikirlər onu qarabaqara izləyirdi. Axşam yatağına girdiyi zaman gözünə yuxu getmədi.

Sonrakı gün yenidən anası ilə gəzintiyə çıxdı. Yenə də həmin mənzərələr, həmin insanlar... Qarşılaşdıqları, ətrafda gəzişən insanların çoxunun xarici dillərdə (əsasən rusca) danışması onun ilgisini çəkdi.

Anasına müraciətlə:

- Bunlar yəqin xarici turistlərdir, ölkəmizə səyahətə gəliblər. Elə deyilmi?

Anası:

-Bunlar bizim vətəndaşlardır. Bir çoxu köhnə sovet ideologiyasından hələ də qurtula bilməyib. Rus dilini mədəniyyət dili hesab edir, öz dilimizi arxa plana atırlar, bu “ruskayazıçni”lar...

Yaşar:

-Yəqin onlar ana dilimizi bilmirlər. Bu üzdən rus dilində danışırlar, eləmi?

Anası:

-Bilirlər, oğlum, bilirlər. Özlərini mədəni göstərmək üçün rus dilində danışmağı daha üstün sayırlar.

Yaşar yenə:

-Yəqin xaricilər də bizim dildə danışmağı çox sevirlər. Axı mən Londonda bizim dildə danışan adamlara rast gəlmədim.

-Bilirsənmi, oğlum; bir necə xarici dil bilmək gözəl haldır. lakin ana dilini arxa plana atmaq olmaz. Ana dilimizi unutsaq mədəniyyətimizi, gələnək-görənəklərimizi də yavaş-yavaş unudarıq.

…Yaşar çeşidli düşüncələrlə daha bir gecə keçirdi. Bu gün anası ilə şəhərə gedə bilməyəcəkdi.- Atasının ad günü idi. Qonaqlar üçün hazırlıq aparmaq lazım idi. Axşam evləri atasının iş yoldaşları ilə,-alimlərlə, aydınlarla dolmuşdu. Yaşar isə qıraqda oturub onların söhbətlərini dinləyirdi. Onların danışdıqlarından bir sonuc çıxartmağı düşünürdü. Müxtəlif mövzularda gedən söhbətlər yavaş-yavaş qızışırdı. Qonaqların da bir çoxunun dilində tez-tez rus sözləri səslənirdi. Yaşar bu sözləri dinləyir, kiçik cib bloknotunda qeydlər aparırdı ki, qonaqlar dağılışandan sonra anlamlarını öyrənsin. Söhbət Küveytdə insanların firəvan yaşamasından gedirdi. Qarnı özündən bir neçə qarış qabağa çıxan, stola

söykənən şişman bir kişi yaxşı başa düşmədiyim kimləri isə nəzərdə tutub deyirdi:

-Onların heç nəyə ehtiyacları yoxdur, hər şeydən "obspeçen"dirlər.

Dairəvi düzülmüş stolların baş tərəfində, lap Yaşarın atasının yanında oturan (görünür, o, atasının ən yaxın dostlarından idi) çal saçlı birisi isə deyirdi:

-Razumeetsa.

Əlindəki badəyə içki süzüb tost deməyə hazırlaşan birisi:

-Mexman, skolko let Londonda yaşadın?

Sonuncunu Yaşar yaxşı tanıyırdı. O, bir neçə dəfə Londonda, Mehmangilin evlərində olmuşdu. Deyəsən xarici ticarət məsələləri ilə məşğul idi. Onun haqqında həm atasından, həm də anasından çox eşitmişdi. Həddindən artıq şit və bayağı hərəkətlər edərdi. Bu isə Yaşarın qətiyyən xoşuna gəlməzdi. Nə əcəb atası bununla yaxınlıq edirdi, anlamırdı. Görünür, bu atasının xidməti ilə bağlıydı.

Yaşar öz-özünə düşünürdü. Bəs niyə atası rus sözlərini işlədən bu adamlara bir təpki göstərmirdi? Axı Vətənini, xalqını, dilini sevmək kimi hissləri onun beyninə atası yeritmişdi. İngilis dilində təhsil alsa da, doğma dildə ona yazmaq, oxumaq öyrətmişdilər. Atası hər dəfə Bakıya gələndə ona Azərbaycan yazıçılarının əsərlərindən gətirərdi. Yaşar Anarın bir neçə əsərini oxumuşdu. O, bunları düşünür və istəyirdi ki, söhbətə qarışsın, səbəbini atasın-

dan soruşsun, qarşılaşdığı mənzərələr, həmçinin qonaqların danışarkən rus sözlərindən istifadə etməsinin səbəblərini elə onların öz dilindən öyrənsin. Lakin o, tərəddüd içində idi. Bilmirdi, nədən başlasın.-Çəkinirdi.-"Görəsən atamın acığına gəlməz?", "Qonaqlar bunu tərbiyisizlik kimi qələmə vesələr, necə?" sualları ona rahatlıq vermirdi. Dillənsə atası utanar, "sən mənim başımı qonaqların yanında aşağı etdin"-deyərdi. Çox tərəddüd etdikdən sonra cəsarətini toplayıb atasına yaxınlaşan Yaşar dedi:

-Ata, bir şey soruşa bilərəm?

-Buyur, oğlum!

-Biz bu gün şəhəri dolaşarkən daha bir mənzərəylə rastlaşdıq. Şəhərin küçələri ilə gəzişərkən adamların xarici dillərdə danışdığını gördüm. Öncə onların turist olduğunu, ölkəmizə səyahətə gəldiklərini düşündüm. Lakin anamdan onların öz vətəndaşlarımız olduğunu öyrəndim... Bu nə haldı belə?

Atası cavabında:

-Görünür, sən bəzi vətəndaşlarımızın danışarkən rus sözlərindən istifadə etməsindən rahatsızsan. Ana dilini unutmaq olmaz. Çünki anamız bizə bu dildə layla deyib. Bu dilin sədaları altında başımızı sığallayıb, tellərimizi oxşayıb. Babalarımız bu dildə danışıb, bu dildə yazıb, pozub.

Bu məqamda qonaqların bəzisi də bu söhbətə qoşuldu. Söhbətin belə məcrada davam etməsi Ya-

şarı çox sevindirdi.

Axşam qonaqlar dağılışdıqdan sonra atası Yaşarı yanına səsləyib yarımçıq qoyduğu söhbəti davam etdirdi. Saat gecə 00:00-ı gostərirdi. O, anışa-danışa Yaşarı yuxu tuturdu. Atası onun bir azdan yatacağını görüb, öz otağına ötürdü.  Yatağında o tərəfə, bu tərəfə çevrilir, yuxuya getməyə çalışırdı. Fikirlər kölgə kimi saniyəbəsaniyə onu izləməkdə idi. Ümid etməkdən başqa çarəsi yox idi. "Yeməkdən ümid yaxşıdır". Kim bilir, bəlkə...

# Uçurum

*Öz qövmümüzün başına əngəl kələfiz biz.*
*M.Ə.Sabir*

Cəfərin başı çeşidli düşüncələrlə dolu idi. Gah gördüklərindən sarsılan, gah da xoşhal olub, üzü gülən bu gənc həyatın çətinlikləri ilə çarpışmaqda, onları bacardığı qədər dəf etməkdə idi. Ən azından bunu etməyə çalışırdı.

Cəfər səhər tezdən durmağa adət etmişdi. Bu vərdişi onda atası oyatmışdı, "kişi günü ayaq üstə qarşılar"-deyirdi.

Cəfər yenə də yazı masasında oturub öz aləminə qapanmışdı. Nə yaz fəslinin xoş səhər mehinin onun yumşaq saçlarını üzünə dağıtması, nə də yaxınlıqda cəh-cəh vuran bülbüllərin xoş avazı onu kədərli düşüncələrdən ayıra bilmirdi. .

Universitet öyrəncisi olan Cəfər ara-sıra vaxt tapıb yazı-pozu ilə də uğraşır, müxtəlif mövzulardan yazırdı. Bəzən də onun gənc qəlbini ağrıdan, ruhunu söküb dağıdan üzüntülərdən yazırdı. Olurdu ki, bəzən də təkliklə baş-başa qaldığı zamanlar ilk hekayəsini yazmasını, hətta bu yazını cəsarətlə qəzetə aparmasını xatırlayırdı. Ata-anası onun bu uğuruna nə qədər sevinmişdilər, ilahi! Cəfər özü də ilk uğurundan çox sevinmişdi, axı onun ilk hekayəsini bəyənmişdilər, qəzetdə çap etdirməyi məsləhət gör-

müşdülər. Lakin o, nə biləydi ki, qəzet redaksiyalarında keçmiş kommunist xofu canlarından çıxmayan, vəzifələrini öz ata-babalarından irs alan süründürməçilər hələ də qalmaqdadır...

Fərqli redaksiya qapıları döydü, müxtəlif peşə adamlarına göstərdi ilk yazısını. Kimi ona:

-Afərin, oğlum, inşallah sənin gələcəyin parlaqdır, bu yolu davam etdirsən yaxşıdır. Artıq ilk yazından anladım ki, səndə istedad var;

Kimi də:

-Ay uşaq, indi vaxtım yoxdur, get, sonra gələrsən, işin-gücün yoxdu, sənin? Tələbəsən, get dərsini oxu, yazıların da qoy qalsın, sənə öz fikrimi sonra deyərəm,-dedi.

Elə bil həftələrlə süründürüləcəyi onun alnına yazılmış tale qisməti idi. Bir müddət sonra Cəfər ilk qələm təcrübəsinin nəticəsini öyrənmək üçün redaksiyaya yollandı. Axı indi alacağı xəbər onun bütün gələcəyini müəyyənləşdirəcəkdi.

-Bağışlayın, müəllim mənim yazıma baxa bildizmi?

-Hansı yazıya?

-Cəfər duruxdu, danışmağa söz tapmadı. Redaktorun ikiqatlı meşin qapısını bağlayıb otağı tərk etdi.

Mən bu gənc tələbəni yaxşı tanıyırdım. Boş vaxtı olanda tez-tez günümün çox hissəsini keçirdiyim bağa gələrdi. Onun saatlarla xəyala daldığını, bəzən

çantasından kağız çıxardıb nə isə qeyd etməsindən hiss edirdim ki, yaradıcı gəncdir. Amma hələ onunla danışıb ünsiyyət qura bilməmişdim. Bu gün onu həmişəkindən qəmli gördüm. Yanımdakı popkorn satan qocadan ayrılıb ona yaxınlaşdım.

-Nə olub, ay bala, deyəsən Aralıq dənizində gəmin batıb?

-Gəmim batmayıb ay əmi, özüm batıram, özü də adsız bir dənizdə. O mənə yenicə yaradıcılığa başladığını, lakin ilk hekayəsini çap etdirə bilməməyini, süründürməçiliyə, biganəliyə məruz qaldığından danışdıqca hiss etdim ki, bu gəncin mənəvi dəstəyə, təsəlliyə ehtiyacı var.

-Sən hələ nə görmüsən ki! Gərək bunlara qatlanasan, həyat belədir, oğlum. Daha sən bu yolu tutmusan, unutma ki, bu yolda sənin qarşına hər cür adam çıxa bilər. Sən sınmamalı, əksinə, inadına, öz işini davam etdirməlisən!

Bu sözlər Cəfəri çox düşündürdü. Həmin gecə yuxusuna haram qatıb bu barədə uzun-uzadı düşünürdü:

-Mənim kimi yüzlərlə, hətta minlərlə gənc var.

Həyat burulğanı gənc Cəfəri nə qədər sıxsa belə o, yaradıclığına davam edirdi. Yeni-yeni yazılar araya-ərsəyə gətirir, heç də ruhdan düşmürdü. Lakin bu gəncin ürəyini ağrıdan başqa bir məsələ də vardı.

Yaxşı yadındadır, bir gün qəzet redaksiyalarının birinə üz tutdu. Salamlaşdı, özünəməxsus utancaqlıqla əlindəki yazını baş redaktora uzatdı. Baş redaktorun da başı yamanca qarışmışdı. Sonra fikirlərindən ayrılıb, yazıya baxmadan:

- Haralısan? –deyə soruşdu.

Cəfər duruxdu, axı, o, belə sualı gözləmiridi, heç gözləmirdi. Axı, artıq neçə illərdi çəkdiklərimiz "haralısan" sözünü bizə unutdurmalıydı hələ-hələ ictimai fikri qidalandıran qəzet redaktorlarına.

-Niyə soruşursunuz?

Baş redaktor gözlüyün altından onu tərs-tərs süzdü.

-Səndən soruşuram ki, ha-ra-lı-san?

Cəfər baş redaktorun təkid etdiyini görüb dedi:

-Əgər bu qədər vacibdirsə deyim:-Filan rayon, filan qəsəbə.

Baş redaktorun siması dəyişdi, sanki başına daş düşdü. Cəfərin cavabı baş redaktor üçün təhqirdən də betər oldu.

-Bilirsən, bizim qəzetdə bu tipli yazıların çap etdirilməsi mümkünsüzdür.

Cəfər mat-mat durub onun üzünə baxdı. Tərbiyə aldığı ailə ona insanlarla necə rəftar etməyi çox gözəl öyrətmişdi. O, yaxşı bilirdi ki, insanlara mənəviyyatına, insanlığına görə dəyər vermək lazımdır.

Redaktorun hərəkəti Cəfəri bir anlıq sarsıtdı, lakin gücünü toplayaraq bu fikirləri başından çıxar-

mağa çalışdı. Axşam şəhərdən evlərinə qayıdarkan avtobusun şüşəsindən çölə boylanır, yol boyu mənzərələri seyr edə-edə düşünürdü. Bu düşüncələr onu necə yormuşdusa yolun sonuna çatdığını belə hiss etmədi.

Ertəsi gün Cəfər bağa həmişəkindən daha tez gəlmişdi. Hiss edirdim ki, o artıq mənə öyrəşib, çünki, hər dəfə bağa gələndə gözləri ilə məni axtarırdı. Öncələr adamayovuşmaz hesab etdiyim bu gənc, demə, çox mehriban, böyük-kiçik yeri biləndi. Dərhal hiss olunurdu ki, güclü ailə tərbiyəsi görüb. Son zamanlar o, özünə münasib bir adam tapıb dərdini bölüşdürməyə daha çox ehtiyac hiss edirdi. Ona görə də salamlaşandan sonra mənim ondan nə soruşacağımı gözləmədən dedi:

-Bilirsənmi, bu gün bir qəzetin baş redaktoru mənə qəribə bir sual verdi?

- Necə sual?

-Məndən haralı olduğumu soruşdu.

-Bəs sən nə cavab verdin?

-"Bunun bir önəmi varmı?"-dedim. Lakin baş redaktorun təkidindən sonra haralı olduğumu da dedim.

Başa düşdüm ki, bu olay gənc dostumu əməlli başlı sarsıdıb.

Ona təsəlli verməyə başladım.

-Oğlum, demədimmi heç bir zaman uğursuzluqdan sınmamalı, sarsılmamalısan. Əksinə bütün gü-

cünü toplayıb, yenə də, yenə cəhd etməlisən. Sən "Teymur və qarışqa" hekayəsini oxumusanmı?

Bu gəncin mənim xoşuma gələn yönlərindən biri də bu idi ki, o, ümumi danışsa da konkret fərdlərin adını çəkmirdi. Elə ona "haralısan" deyən redaktorun da adını güclə öyrənə bildim. Mən bu redaktoru yaxşı tanıyırdım. İnsafən pis adam deyildi. Bircə çatışmayan cəhəti yerlibazlıq idi. Orta məktəbdə yaxşı münasibətimiz vardı. Sonralar institut həyatı bizi ayrı saldı. Mən mühəndis oldum, iş prosesində zədə alıb vaxtından öncə təqaüdə çıxdım. O isə jurnalist oldu. Onların çox gözəl bir mərtəbəli həyat evləri vardı. Pis də yaşamırdılar. Tez-tez onlara gedərdim. Atası çox biganə, özü üçün çalışan adam idi. İstəsəydin əgər bu kişini hirsləndirəsən onu toya çağıraydın. Hər gün bir neçə toya getmək onu bu həyatdan əməlli-başlı küsdürmüşdü. O, haqlı olaraq çətin həyat şəraitimizi adət-ənənələrimizlə bağlayırdı:

-Ay balam, gündə neçə toy olar?

Bir gün yenə də adətim üzrə onlara getdim. Dostum talvara dırmaşıb üzüm dərirdi. Hal-əhval tutduq. O:

-Atam axşamdan iki dəvətnamə alıb, qanı qaralmışdı. İkisini də o işə gedəndən sonra evə gətiriblər. Heç bilmirəm ona necə deyim?

Bu əsnada küçə qapısının zəngi çalındı. Oğlu tez özünü yığışdırdı.

-Atamdır!

Kişi həyətə deyinə-deyinə girdi. Görüşdük. Mənimlə yüngülcə zarafat da etdi:

-Dəvətnamə gətirməmisən?

Elə ki, gözü masanın üstündəki dəvətnamələri gördü, elə bil od püskürdü. Ağzı köpükləndi. Toy sahiblərinin ata-babasına bir xeyli "dua" etdi. Biz isə bir küncə qısılıb özümüzü gülməkdən güclə saxlamışdıq. Haçandan-haçana kişi özünə gəldi. Məni yanına çağırdı:

-Sən din barədə bizdən yaxşı bilirsən. Neçə imam olub?

-On iki.

Olmazdı ki, bu imamların hərəsi bir ayda öləydi, elə il boyu matəm olaydı?

Özümü saxlaya bilməyib güldüm. Kişi də mənə qoşuldu. Lakin onun mehribançılığı uzun çəkmədi. Bu zaman telefon zəng çaldı.

Oğlu:

Ata, anamdır. Deyir ki, işdən çıxıb bir başa toya gedəcəyik, ona görə də evə gec gələcəyəm. Mən indilərdə başlayacaq yeni bir tufan dalğasını görməmək üçün tez aradan çıxdım. Sonra nələr baş verdi, bax onu bir Allah bilir.

Mən bunları xatırladıqca Cəfər də dərin düşüncələrə dalıb fikirləşirdi:

-Xeyr! Bunun bir yolunu tapmaq lazımdır.

Kəndə qayıdanda da eyni düşüncələrin təsiri altında idi. Bu zaman sürücü radionu qoşdu. Gözəl bir türk mahnısı səslənirdi. İndi də bütün diqqətini radioya yönəltmişdi. Mahnının sözləri onun fikirləri ilə üstü-üstə düşürdü.

-“Kısa yolu bulamadı, yine aramız uçurum”.

## Qəhvəyi pencəkli oğlan

Əksər uşaqlar kimi mən də kənddə böyümüşəm. Kəndimiz dağ kəndi olmasa da palıd ağacları ilə çevrəli idi və bu ağaclar kəndimizə xüsusi yaraşıq verərdi. Əsl meşə və dağ isə kəndimizdən çox da aralı deyildi. Biz qonşu kəndin qırağından keçən kəsmə dar cığırla istədiyimiz zaman dağa qalxar, meşəni gəzər, qayıdanda isə özümüzlə götürdüyümüz qablarla gücümüz çatan qədər bulaq suyu gətirərdik. Dağın döşündəki meşəni el arasında "Ağcameşə" adlandıdrdılar. Doğrudur, mən bu sözün anlamını bilmirdim, ancaq yaşlı adamlar, bu sözə fərqli anlamlar verirdilər. Kimi ağ meşə deyir, kimisə Ağa adlı birinin adı ilə bağlayırdı. Mən bu fikirlərdən hansının doğru olduğunu bilmirdim.

Biz heç nəyin fərqinə varmadan atılıb düşür, oynayır, xoşbəxt həyat sürürdük. İndi nə xatırlamağa çalışdığım insanların üzünü, nə də o gözəlliyi təsvir edə bilirəm. Artıq o gözəllikdən əsər-əlamət qalmayıb. Meşələr qırılıb, dağın ətəyi isə kənd camaatına pay torpaq kimi paylanıb.

Amma yaşıdlarımla bağlı çox şeyləri xatırlayıram. Babam yekə qarğılardan mənim üçün tilov düzəldərdi. Onunla çaya balıq ovuna gedirdim. Lakin bu hər dəfə uğurla nəticələnmirdi. Tez-tez yolda qonşu məhəllənin uşaqları ilə savaşar və babamın

düzəltdiyi çubuqları qırardım. Ara-sıra bir-iki balıq tutsaq da bizdən yaşda böyük oğlanlar bu balıqları əlimizdən alırdı.

Bir dəfə atam məni dükana çəkic almağa göndərmişdi. Qayıdanda Hüseyn adlı bir oğlan qarşımı kəsdi. Ondan xoşluqla qurtulmağa nə qədər cəhd etsəm də mümkün olmadı. Əlimdəki çəkici bir neçə dəfə təsbeh kimi fırladaraq onun gözünü nişan alaraq tulladım. Amma xoşbəxtlikdən çəkic onun gözündən yan keçib alnına dəydi. Mən qanı görüncə bərk qorxdum. Ağlaya-ağlaya evə qaçdım. Atam bostanda çalışırdı. Onun arxasında gizləndim:

-Ata, qoyma məni döysünlər.

Atam mənim bərk qorxduğumu nəfəsimin təngiməyindən hiss etdi.

-Səni kim qovur, de görüm, nə olub?

Mənim hıçqıra-hıçqıra ağlamağımı görüncə dedi:

-Heç kimdən qorxma, mən sənin yanındayam!

Özüm yaşda olan bütün uşaqlar kimi mən də öz atamı böyük qaya parçalarını belə qoparıb ata bilən bir pəhləvan hesab edirdim. Atamın sözlərindən hədsiz qürurlandım, arxayınlaşdım, məndə bir əminlik yarandı və az sonra lovğanaraq gəzməyə başladım.

Uşaqlıq həyatımdan yaddaşımda qalan əsas hadisələr dostum Yalçın, Əli və onların ailələri ilə bağlıdır. Yalçıngilin evləri bizimlə üzbəüz idi. Bizi onlardan balaca bir taxta hasar ayırırdı. Tez-tez

pəncərədən bir-birimizlə söhbətləşirdik. Onların mehriban ailələri var idi. Atası universitetin tarix fakültəsini bitirmişdi. Anası da müəllimə idi. Günün çox hissəsini onlarda keçirirdim. Heç olmazdı ki, Yalçının anası Nisə xala ləzzətli xörək bişirsin, mənim payımı saxlamasın. Yalçının atası İsmayıl əmi çox söhbətcil və baməzə kişi idi. Həmişə oxumaqdan, təhsildən söhbət düşəndə deyərdi:

-Eh, ay bala, indi oxumağa nə var ki!

Və mənə çətin tələbəlik həyatından danışardı:

Bizim evdə oxumağa həvəs göstərən yox idi. Atam əlimdə kitab görəndə deyərdi:

-Bu oğlan deyəsən oxuyub alim, ya da şair olacaq. Mən isə bu sözlərdən inciməz, səylə dərslərimi oxuyurdum. Universitetə təzə daxil olmuşdum Bir gün atam yanıma Bakıya gəldi. Biz universitetin yataqxanasında üç tələbə yoldaşımla bir otaqda qalırdıq. Yoldaşlarımı atamla tanış etdim:

Tələbə dostlarımdır, bir universitetdə oxuyuruq. Atam məni başdan ayağa süzüb:

-Məgər sən universitetdə oxuyursan?

Deməzdim ki, atam hər şeyə biganə idi. Xeyr, o, əsl fədakar ata idi. Özünü balaları üçün oda atmağa hazır idi. Amma, gəl ki, nə özü oxumağa, nə də bizi oxutdurmağa həvəsli deyildi.

Amma mənim ali məktəbə girdiyimi eşidib, əməlli başlı kövrəldi, kişinin gözləri yaşardı. Əlbət-

tə, bu sevinc yaşları idi. Sevincək olub, cibində bir sovet onluğu çıxardıb mənə uzatdı.

Atam "Böyük Vətən Müharibəsi" əlili idi, yaşı yetmişi haqlamışdı. Mən onu Bakıda çox saxlayıb yormaq istəmirdim. Kişini rayona yola salmaq üçün avtovağzala gətirdim. Hiss etdim ki, rayona qayıtmaq istəmir. Bunun səbəbini isə soruşanda cavab vermədi. Çoxlu təkiddən sonra anladım ki, demə kişinin qayıtmağa pulu yox imiş.

"Üstümdə cəmi on manat idi, onu də sənə verdim"-dedi.

Mən də kövrəldim.

Mənim uşaqlıq yaddaşımda qalan unudulmaz xatirələrdən biri də bu idi ki, atam bizi dolandırmaq üçün gecə-gündüz çalışırdı. Xırda ticarətlə məşğul idi. Gah İrana, gah da Rusiyaya gedər, çox az hallarda evdə tapılardı. Yadımdadı, məni məktəbə qoymaq üçün o, bütün işlərini buraxıb qayıdıb gəlmiş, mənim üçün qəhvəyi rəngdə bir pencək almışdı. Bu pencəyi çox istəyirdim. Və hər dəfə dərsdən evə qayıdanda ilk gördüyüm iş bu pencəyi səliqə ilə dolabdan asmaq idi. Həmişə səfərdən qayıdanda atam mənim üçün bolluca yemək gətirərdi. Mən də onun qabağına yüyürərdüm. Amma etiraf edim ki, atamdan çox onun gətirdikləri maraqlandırırdı məni...

İkinci dostum Əli idi. Aralarında müəyyən yaş həddi olmasına baxmayaraq atam da Əlinin atası Muxtarla yaxın dost idi. Muxtarın arvadı Valya rus

qızı idi. Muxtar əmi Moskvada əsgərliyini başa vurub qayıdanda Valyanı da özü ilə gətirmişdi. Hamı Muxtarı Valyanın dili ilə Muxa çağırardı. Mən də ona Muxa əmi deyə müraciət edərdim. Muxa əminin yanında az müddət qalmaq dünyanın ən komik aktyorunun yanında qalmağa bərabər idi. Amma Valya xalaya zülm edirdi. Əlbəttə, oxucular elə bilməsin ki, o, bunu qəsdən edirdi. Xeyr, sadəcə Muxa əminin qulluğunda durmaq, onunla dil tapıb dolanmaq Valya xala üçün həqiqətən də işgəncə idi. Amma o dözürdü. Zatən başqa çarəsi də yox idi. Qonşular soruşanda ki, ay Valya, bu Muxanın əlində necə dözürsən? Cavab verərdi:

-Nə edim? (bilsəniz Valya xala azərbaycan dilində neçə şirin ləhcə ilə danışırdı) hara gedim?. Rusiyada heç kimim yoxdur.

Məhz bu mərdliyinə görə də kənddə onu hamı sevirdi. Bir də görürdün kəndin o başından biri bazarlığa gedir. Səhər tezdən Valyanı çağırıb deyirdi:

Bazara gedirəm, bir şey lazım deyil?

Yaxın qonşuları evlərində nə bişirirdilərsə mütləq Valya xalanın payını göndərirdi.

Heç yadımdan çıxmaz. Bir dəfə Valya xala hardansa üç donuz çoşqası almışdı. “Saxlayıb böyüdüb satacağam”-deyirdi. Kəndin hacıları, mollaları onu nə qədər dilə tutub “bu donuzları rədd elə, əvəzində sənə üç qoyun alarıq”-deyə xahiş-minnət etdilər, xeyri olmadı.

Valya iki ayağını bir başmaqa dirəyib razı olmurdu. Bu çoşqalar az müddətdə həqiqətən də böyüyüb kökəldilər. Kəndimizdə bu donuzlar haqqında hətta zərb məsəl də yaranmışdı. Biri digərini bir balaca kökələn görəndə deyirdi:

-Sən lap Valyanın donquzuna dönmüsən. (Hamı Valyanın dili ilə donuzlara donquz deyirdi).

Muxa əmi də bu çoşqaları kəsib, özü üçün yeyib içmək məqamı gözləyirdi. Bir gün Valya xala qonşu kəndə gəlin köçən qızına baş çəkməyə getdi və gecəni də orda qaldı. Bundan istifadə edən Muxa əmi donuzların üçünün də başına, necə deyərlər, daş saldı. Bilsəniz Valya xala qayıdandan sonra nə tufan qopardı. Bunu təsvir etməyə qələm acizdir. Muxa əmi isə eyvanda durub əlini qarnına sürtür, Valyanın deyinməyindən ləzzət alırdı. Muxa əmi çox içirdi. Ona görə də qara ciyərindən həmişə dad qılardı. Yaponlar nahaq yerə deməyiblər, ”Stəkanda boğulan dənizdə boğulandan çoxdur”. Onun sərxoş olmayan vaxtını görmək deyəsən hələ heç kimə nəsib olmamışdı. Lakin o özü demiş, “dəm” olanda heç kimə zərər vermir, əksinə, daha da mehriban olurdu. Evin qabağındakı artırmada durub yoldan keçənlərə baxırdı. Kimi münasib bilirdisə çağırıdı:

-Get, dükandan mənim üçün bir məzdək al. (Muxa əmi arağa məzdək deyirdi).

Bu iki ər-arvad həqiqətən bir aləm idi. Valya xala Muxa əmidən küsən kimi öz yatacağını yığışdı-

rar, ondan iki otaq aralı olan balaca bir otağa köçərdi. Atam Muxa əmidən soruşardı:

-Muxa, belə hallarda Valya sənə lazım olanda onu necə çağırırsan?

-Svistok çalıram, gəlir.

-Yaxşı, bəs sən Valyaya lazım olanda o nə edir?

-O da bir bəhanə ilə yanıma gəlib deyir:

-Muxa, tı menya ne svistila?.

Doyunca gülərdilər. Nə Muxa əmi, nə də Valya xala kin saxlayan deyildi. Həmişə olduğu kimi tez də barışırdılar. Bir də ki, "ər-arvad savaşı, yaz yağışı"-demişlər.

Yaddaşımda Muxa əmi ilə bağlı çox xatirələr var. Örnək verim, Muxan əminin qonşusu Zivər xaladan zəndeyi-zəhləsi gedirdi. Hər dəfə onu görəndə deyərdi:

-Lap mətəəl qalmışam. Necə olub ki, Cavad səni bəyənib, alıb. Oxşayır səni ona göstərəndə ya sərxoş olub ya da gecə olub ki, sənin üzünü yaxşı görə bilməyib. Yoxsa ağlı başında olan heç kim sənə yaxın durmaz.

Zivər xala da onu tərs-tərs süzər:

-Zəhləm getmiş- deyib, ötüb keçərdi.

Mən isə hər şeyi öyrənməyə həvəsli olduğundan bunun da səbəbini öyrənəsi oldum. Sən demə, Zivar xala subay bir qız olanda bir gecə Allaha niyyət edir ki, "Ya rəbbim, yatım yuxuda görüm ki, istədiyim oğlanla "Volqa"da gəzirəm. (o zaman

"Volqa" maşınını Muxa demiş, "handa bir kişi sürərdi"). Tərslikdən Zivər xala həmin gecə yuxada görür ki, Muxa ilə "Volqa"da gəzir. Səhər kənd içində Muxanın başına bir qapaz çəkib deyir:

-Sən kimsən ki, yuxuma girib mənimlə "Volqa"da gəzirisən?

Möhkəm dalaşmışdılar. Elə o vaxtdan da Muxa əmi Zivərlə yola getmirdi...

Muxa əmi bütün varlığı ilə keçmişə bağlı adam idi. Deyək, radioda hava haqqında məlumatı eşidəndə hirslənirdi-"bunlar hardan bilirlər sabah nələr olacaq, oxşayır Allahdan çox bilirlər". Və yaxud deyəndə ki, "bayramın mübarək" kişi lap hövsələdən çıxardı.

-Bayram mənim atamın əmisi oğlu idi. 5 il bundan qabaq rəhmətə gedib.

Kaş siz Muxa əmini bazarlıq edəndə görəydiz. Bu həqiqətən də bir komedik səhnə idi. O, ən yaxşı kartofa yaxınlaşar, satıcıdan soruşardı:

-Bu çürük kartoflar neçəyədir?

Və beləliklə də qiyməti qabaqcadan sındırardı.

Muxa əmi o işi iş hesab edirdi ki, orda maaşdan savayı "beş-on manat bığyağı" da olsun (o, əlavə qazanca "bığyağı" deyirdi). And içəndə isə "Rəhmanın goruna and olsun, Fətullahın ölmüşü"-deyərdi. Heç kim, o cümlədən mən də indiyə kimi nə Rəhmanın, nə də Fətullahın kim olduğunu bilmədik. Mənim məktəb yaşım çatdı, ailəmiz şəhərə

köçdü və mən kənddən uzun müddət aralı düşdüm. Ara-sıra qonşumuz İsmayıl kişidən xəbər tutsam da, başım təhsilə qarışdı və mən nə Muxa əmidən, nə də Valya xaladan uzun zaman xəbər tuta bilmədim. İndi hər ikisi torpaq altda uyuyur. Bəli, bax Muxa əmi belə Muxa əmi idi. Oğlu Oleq (Əlinin ehtiyat (ikinci) adı Oleq idi) isə eşitdim ki, Moskvada qohumlarından kimi isə tapıb və onun yanında yaşayıb işləyir.

Bir gənc olaraq bir elə keçmişim olmasa da hər an xoş anlara qayıtmaq istərdim. Bu mahnını ona görə çox sevirəm ki, mənim istəklərimlə həmahəng səslənir:

*Köçür durna qatarı,*
*O, baharda dönəcək.*
*Ötən günlər dönəydi,*
*Durna qatarları tək.*

Mənim üçün məktəb sirli-sehrli bir aləm idi. Elə bilirdim ki, məktəbdə şuluqluq etsəm, yaxşı oxumasam məni divlər yeyəcək. Ona görə də mən bu sirli aləmə qədəm qoymaq istəmirdim. Atam mənim üçün rəngbərəng karandaşlar aldı mən də bu karandaşın eşqi ilə məktəbə getməyə razılaşdım. Elə ilk gündən qonşumuz Amidlə dostlaşdım. Mənimlə bir partada oturardu. Hər gün məktəbə Amidlə birgə gedib-gəlirdik. Hələ birinci sinifdə oxumağımıza baxmayaq öz aramızda kiçik zarafatlar da edirdik. Bir-birimizə müxtəlif adlar qoyurduq.

Amidin saçları yumşaq və nisbətən uzun olduğundan mən ona "hörüklü qız", "uzunsaç", o isə mənə "qəhvəyi pencəkli oğlan"-deyərdi.

Bir dəfə Amidlə başımıza ilginc bir olay gəldi. Biz birinci növbədə oxuyurduq. Dərsimiz bitmişdi. Evə yollanırdıq. Elə məktəbin qapısına çıxmışdıq ki, birdən məktəbimizin direktoru Məmməd müəllim qarşımızı kəsdi:

-Hara gedirsiniz, qayıdın geri, sizə kim ixtiyar verib, dərsədən qaçasınız?

Dərsdən gec getdiyimiz üçün direktor bizi ikinci növbənin şagirdi zənn etmişdi.

Analarımız hər gün bizi avtobus dayanacağında qarşılar, evə aparardı. Bu dəfə bizi vaxtında orda görməyəndə, anam demiş "bağrı-ödü yarılmışdı". Gəlib bizi məktəbdə tapanda, anam:

-Hardasınız, ay bala. Gedib o dünyanı görüb qayıtdıq ki!?-dedi.

Mən doğma kəndimizə bir də iki ildən sonra qayıtdım. Onda maddi durumumuz olduqca pis idi. Atam xəstələnmişdi, onun müalicəsi üçün pul lazım idi. Əmim bizə çoxlu pul borclu idi. Atam məni dayıma qoşub rayona göndərdi. Atam dayıma tapşırmışdı ki, çətin durumumuzu əmimə bildirsin və güman ki, o sizi əliboş qaytarmaz. Əmimdən qabaq onun arvadı dilləndi:

-Gözümüz aydın, neynək pulları yoxdur?..

Və məni nifrətlə süzüb dedi:

-Sən bir bunun pencəyinə bax!..

Mən özümə təzə pencək ala bilmədiyimdən qəhvəyi pencək əynimə balacalaşmışdı və qolları az qala dirsəyimə çatırdı. Əmim arvadının mənim sevimli pencəyimi ələ salmağı mənə hər şeydən çox təsir etdi. Həyasızlığın dərəcəsinə fikir verirsizmi? Görünür yer üzünün boş qalmaması üçün belə adamların da yaşaması lazımmış. Rayondan əliboş qayıtdıq. Atam özünü topladı, ayağa durub işlədi. Və biz bu çətin durumdan xilas olduq.

## O qayıtdı

İki ilə yaxın idi, hər gün yolum burdan keçirdi.-Qar da, yağış da, isti də olsa fərq eləməzdi.-Bu yol məni işə aparıb gətirən yeganə yol idi. Amma hər dəfə bu yoldan keçəndə iki şeydən çox ehtiyatlanırdım. Birincisi bizdən bir neçə ev aralı Abbas dayının itləri idi ki, görən kimi üstümə yüyürüb məni dövrəyə alırdılar. Hər dəfə bu itlərdən Abbas kişiyə şikayət edəndə o, deyərdi.

-Sən öz yolunla düz getsən, itlər sənə toxunmaz.

Və bununla da mənim özümü günahkar edirdi. Onun həmişə təkrar etdiyi bu sözlər bir dəfə məni əməlli-başlı özümdən çıxdım:

-Öz yolundan sən özün azmısan, mən öz yolumdayam.

Bu itlərin məni dişləyə bilməsindən daha çox qorxum onda idi ki, onlar dalımca hürəndə həmin gün mütləq başıma bir qəziyə gəlir, işim alınmırdı, iri buz qayalarına dəyib parçalanan gəmilər kimi uğursuzluğa düçar olurdum.

Abbas kişidən bir neçə ev aralı Xəlil adlı bir kişi yaşayırdı. Yaşının 45-ə yaxın olmasına baxmayaraq evlənməmişdi. Ata-anası uzun illər öncə vəfat etmişdi. Xəlil uzun illər tək yaşadığından artıq pinqvinlər Antarktidanın buzlu sularına adət etdikləri kimi yalnızlığa adət etmişdi. Hərdən o mənə

keçmişindən, Rusiyadakı məcaralarından danışar, mən də ona diqqətlə qulaq asardım. Əlamətlərə çox az inanıram, amma buna necə inanmayım ki, hər dəfə onunla qarşılaşanda qəribə məcaralarla qarşılaşıram. Çoxları deyirlər, bu sənin qismətindir, hər şey qismətdən asılıdır. Yəni bir şey sənin qismətində varsa o qarşına çıxacaq, buna Xəlil neyləsin? Amma nədənsə çox az adam "hərəkət bərəkətdədir" sözlərinin fərqinə varır. Bu kişi mənim qarşıma çıxdığı günüm bada gedirdi.-Ya biri ilə dalaşacaqdım, ya müdirdən tənbeh alacaqdım, ya da yolla gedərkən başıma bir qəziyə gələcəkdi.

Bir də görərdin, məhəllə uşaqlarını başına yığıb onlar üçün goplayır.

-Cavanlıqda bilirsiniz mən nə edirdim?

Uşaqlar maraqla soruşardı:

-Nə edirdin?

-İki ayağımı cütləyib qalxırdım havaya. Daha yerə düşmürdüm e, elə havadan asılıb qalırdım.

Balaca uşaqlar bu yalana inansalar da, nisbətən yaşda böyük uşaqlar buna gülürdülər.

Bir dəfə İrana ticarətə getmişdi. Peşman olub onunla zarafat etdim:

-Məşədi, ziyarətin qəbul.

Xəlil başladı nə başladı:

-Çox sağ ol, Allah sənə də qismət eləsin.

Və başladı Məşhədi təsvir etməyə, əlbəttə vaxtı ilə kimdənsə eşitdiklərini danışmağa. Və o gündən kişi özünü etdi məşədi, mən də savab yiyəsi oldum.

Adamla üz-üzə gələndə 20 metr qabaqdan əlini uzadıb ona tərəf irəliləyirdi Xəlilin kimə işi düşərdisə onu bir xəlvətə çəkər, deyərdi:

-Bura bax, bizim kənddə iki kişi var, biri sənsən bir də mən. Bir başqasına işi düşəndə həmin sözləri ona da deyirdi. Amma hər dəfə özünə kişi deməyi unutmazdı.

Bir gün də işə gedərkən gördüm, Xəlil alaqapısının yanındakı daşın üzərinə əyləşib, siqaret damağında dərin fikrə dalıb. Bu onun adəti idi. Mən onu görər-görməz həmişə olduğu kimi ədəb-ərkanla salam verdim.

-Salam əleyküm.

-Əleyküm salam, Hara belə?

"Hara belə?" ən xoşlamadığım ifadə idi. Mənim uğursuzluğumun mayeyi-fəsadı da həmin o iki söz idi. Bizim ailədə bu sözü "inşallah, xeyirdirmi?" sözləri əvəz edirdi. Ondan bu sözləri bir daha mənə deməməsini dəfələrlə xahiş etmişdim. Amma nə yarar? Atalar demiş, "Cam nə qədər böyük olsa, yenə iman öz bildiyin edər".

Bu dəfə özümü saxlaya bilmədim, acıqla:

-Siz hər dəfə mənə "hara gedirsən" sualını verməkdən yorulmursunuz?

O isə:

-Fikir vermə, yaddaşım çox zəifləyib. Qocalıq yaman pis şeydir.

Sən qocalığı boynuna alırsan?

-Qocalığı adam boynuna almır ki, o özü adamın boynuna minir.

Bu gün başıma hansı qəziyənin gələcəyini beynimdə götür-qoy edə-edə Xəlildən ayrıldım.

Həmin gün çox işlərimi nizama saldım. Hava yenicə qaralırdı. Bir azdan ağ tük qara tükdən seçilməyəcəkdi və xalq iftarını açacaqdı. Budur, azan verildi. Mən balaca bir bağda oturacaqda oturub, iş yoldaşımı gözləyirdim. Başqa bir iş yoldaşımgilə gedib iftarı bir yerdə açmağa vədələşmişdik. Bu əsnada gözlərimə uzaqdan ağ rəngdə bağlamaya bənzər bi şey sataşdı. İlk öncə nə olduğunu bilmədim. Çox maraqlı idi. Yaxınlaşdım, onun bir bükülü parça olduğunu gördüm. Qulağıma ağlamaq səsi gəldi və mən ağ parçanın içindəkinin uşaq olduğunu yəqin etdim. Fikirləşdim ki, anası uşağı burda buraxıb yaxına hansısa işin dalınca gedib. Tez də fikrimdən daşındım. Hansı ağılsız körpəsini qaranlıqda bağda buraxıb ondan bir metr uzaqlaşar?

Bir müddət gözlədim. Uşaq isə ara vermədən ağlayırdı.

-Allah, mən edim?

Fikirləşdim ki, bəlkə bu körpəni çoxdan bəri övlad həsrətində olan qohumlarıma aparım verim sax-

lasınlar. Amma axı, sonralar işin üstü açılar, mənə uşaq oğrusu damğası vurarlar. Günümə baxın da!

Bu gün başıma məcara gəlmədiyinə görə sevinirdim, indi bax da, sən saydığını say, görək fələk nə sayır.

Uşağı başlı-başına qoyub ordan uzaqlaşmağa insafım yol vermədi. Buna ürəyim dözməzdi. Çox götür-qoydan sonra uşağı yaxındakı polis bölməsinə təhvil vermək qərarına gəldim. Onlar uşağı lazım olan yerə çatdırar, orda isə onun qayğısına qalardılar. Həmin gecə ömrümdə ilk dəfə olaraq iftarımı pozdum. Amma arxayın idim. Arxayın idim ki, Allah günahımdan keçər. Həyacan və qorxudan ayaqlarım yerimirdi. Özümdə qüvvə toplayıb uşağı polis bölməsinə aparıb təhvil verdim, ifadəmi aldılar. Növbətçinin telefonunu istədim, verdilər. "Hər hansı bir yenilik olsa məni də xəbərdar edin"- deyə onlardan xahiş etdim.

-Narahat olmayın, vətəndaş! Sizi xəbərdar edərik.

Mənə bir kağız uzatdılar.

-Zəhmət olmasa əl telefonunuzun nömrəsini bu kağıza yazın.

Evə qayıdırdım. Yol boyu uşaq haqqında düşünür, anasının tapılması üçün dua edirdimm. Gecəni nə qədər çalışdımsa yata bilmədim. Səhər tezdən həmin bağa yollandım. İş vaxtıma iki saat qalırdı. Fikirləşdim ki, bəlkə körpənin anası peşman olub

onu axtaracaq, mən də onu sevindirərəm. Dünənki həyəcan və yorğunluq, gecəki yuxusuzluq məni haldan saldığı üçün oturacağın üzərinə əyləşib ayaqlarımı azca irəli, qollarımı da uçaq qanadı kimi oturacağın yanılarına doğru uzatdım. Uzun xəyallar yenə də məni məşğul etməyə başladı. Hava da bir az buludlu idi, payız küləyi ağacların kövrək yarpaqlarını bir-bir yerə salırdı. Belə mənzərədən doymaq olmur. Lakin bu zaman başqa bir mənzərə məni bu mənzərəyə baxmaqdan məhrum etdi.

Əyləşdiyim oturacağın arxasındakı ağacda quşlar yuva salmışdı. Bala quşlar səs-səsə verib çikkildəşirdilər. Çox keçmədi ki, ana quş dimdiyində bir soxulcan yuvaya-balalarının yanına qayıtdı. Sevindim, amma bu sevincim natamam idi. Axı hələ balaca körpənin anası tapılmamışdı. Düşündüm ki, polis idarəsinə zəng edib bir xəbər bilim. Bəlkə bir yenilik var?..

Mobil telefonumla bölmənin nömrəsini yığdım.

-Alo, alo. Salam, cənab bölmə rəisi. Sizi dünən gətirdiyim körpə ilə bağlı narahat edirəm.

-Çox təəssüf, vətəndaş. Biz də sizinlə əlaqə saxlamağı düşünürdük. Axtarışımız heç bir sonuc vermədi, sabah onu körpələr evinə göndərəcəyik.

# Ehtiras

Bizim kənd başqa kəndlərdən bir o qədər də fərqlənmir. Kəndin əhalisi əsasən əkin-biçin və maldarlıqla məşğul olur, öz gün-güzəranlarını birtəhər keçirirlər. Əkinçilər min əziyyətlə məhsulu hasilə gətirir, amma bir çox hallarda yaxşı qiymətə sata bilmir, bundan bir şey çıxmayacağını yəqin edən bir çoxu Rusiya şəhərlərinə üz tutur, aylarla, bəzən də illərlə kənddən uzaq düşürlər.

Kənddə əsasən yaşı 60-keçmiş qocalar, qadınlar və bir də məktəbyaşlı uşaqlar qalırdı. Qonşumuz Bilal kişi də çoxdan altmışlamışlardan idi. Çox zəhmətkeş bir insan idi o. Maldarlıqla məşğul olar, toyuq-cücə saxlar, bir az da bağ-bostan edərdi Bilal.

Hər səhər tezdən durar, mal-qaranı naxıra qoşar, axşamlar isə hava qaralanda naxırdan qayıdan inəklərini, qoyunlarını qarşılayırdı. Onun "Alabaş" adlı iti isə heyvanların qənşərinə qaçır, onları qabağına qatıb, həyətə salırdı. Alabaşın çox qorxunc üzü vardı. Adamı görən kimi o saat üz-gözünü turşudur, mırıldanırdı. Bu itdən zəhləm gedirdi. Xəlvətə salıb bir hündür yerə çıxır, dişlərimi onunçün qıcıdar, hirsləndirirdim. İt isə uzun-uzadı hürür, məni parçalamaq istəyirdi.

Bilal kişi köksündə savaşdan qalma qəlpə daşıyırdı. Bu ona çox əziyyət verirdi. Son zamanlarda

ürəyində ağrılar yaranmışdı. Bir neçə il öncə həyat yoldaşı xroniki ürək xəstəliyindən vəfat etdiyindən oğlu Bəhram və onun ailəsi ilə bir yerdə yaşayırdı. Bəhramın bu ikinci evliliyi idi. Neçə illər bundan qabaq qonşu kəndən evlənsə də xasiyyətləri düz gəlməmiş, ayrılmışdılar. 7-8 il bundan öncə isə Bakıda rast gəldiyi Gülzar adlı bir qızla tanış olmuş, ailə qurmuşdu.

Bəhramın 37 yaşı tamam olmamışdı. Bundan 11 gün sonra isə oğlunun 6 yaşı tamam olacaqdı. Bu darıxdırıcı kənd həyatı onu əməlli başlı bezdirmişdi. Beyni Rusiyada ticarətlə məşğul olmaq, çoxlu pul qazanmaq kimi fikirlərlə məşğul idi. Tam bu zamanlarda uzun müddət idi ki, Rusiyada yaşayan dostu Nicat onu Moskvaya çağırdı.

Nicat hansı bir işdən ötrüsə iki günlük Bakıya gəlmişdi və Bəhramla görüşüb, onu da özü ilə aparmaq qərarını açıqlamışdı.

Bəhram bu təklifi alandan sonra "Bəs qocanı nə edim?"-deyə bir müddət tərəddüd etdi. Son zamanlar həkimlər Bilal kişiyə ağır yük qaldırmağı qadağan etmişdilər. Çox tərəddüddən sonra Bəhram Bakıya yola düşdü, hava limanında Nicatla görüşdülər. Uzun illərin həsrətini çəkən dostlar doyunca söhbət etdilər. Axı, onlar orta məktəbdə bir sinifdə oxumuş, bir parta arxasında əyləşmidilər.

Bəhram Rusiyaya getməyə bir anlıq tərəddüd etsə də sonradan rus rublunun, amerika dollarının

şax-şux səsləri onu yoldan çıxartdı. Xarici kimlik də problem deyildi. Çünki o artıq bir neçə dəfə İrana, İraqa ziyarətə getmiş, özü üçün dini rütbələr qazanmışdı.

Bir neçə gün keçər-keçməz Bəhram Sibirdə Nicatın nə işlə məşğul olduğunu anladı. Demə, o, burda əməlli-başlı avaraçılıqla məşğul imiş. Uzun illər Rusiyada yaşamasına baxmayaraq o, heç əməlli-başlı rusca da danışa bilmirdi. Doğma dildə əzbərlədiyi şeirlərin qol-qıçını sındırıb rus dilinə çevirir, rus qızlarına oxuyurdu. Örnəyi, "Ya tebe lyublyu" əvəzinə "ya tebe lyobiş" deyirdi. Hər dəfə yeni bir rus qızı ilə tanış olur, onu binalarının qabağına qədər ötürür, başındakı norka papağını qapıb qaçırdı. Sən demə Bakıya da elə həmin papaqları satmaq üçün gəlibmiş. Bu Nicatın əsas gəlir qaynağı idi. Bundan başqa o, bilet alveri də edirdi. Rusiya ilə az-çox bağlı olanlar yaxşı bilirlər ki, orada növbə məsələsi çox ciddidir. Belə ki, ruslar növbəsiz heç kimi buraxmırlar. Nicat bədəninin yekə olmasından istifadə edib istədiyi vaxt növbəyə girir, buna görə deyinənləri ömənsəməyərək deyirdi:

-Ya izdes bil.

Üzünü birinə tutub soruşurdu:

-Ya zdes ne bil, alə?

Həmin şəxs isə Nicatın hündür boyuna, yekə qarnına baxıb vahimələnir, istər-istəməz təsdiqləyirdi:

-Bıl, bıl.

Nəsillərində Nicat kimi fırldaqçı yox idi. Zalım balası kimə oxşamışdı, bilinmirdi. Atası onun Rusiyadakı məcaralarından xəbər tutanda demişdi:

-Bu köpək oğlu dayılarına çəkib.

Atası, əmiləri abırlı kişilər idi. Bir əmisi Gülməmməd bizdən üç-dörd ev aralı, çiy kərpicdən tikilmiş iki balaca otaqdan ibarət evdə yaşayırdı. Şəhər kanalizasiya idarəsində çalışırdı. Ayağında çəkmə, əlində bel kanalizasiya kanallarını təmizləyirdi. Arvadı və anası ilə birlikdə ailədə 13 nəfər idilər, çox kasıb həyat sürürdülər. O günü ki, çörəyi qəndlə yeyirdilər, sevinirdilər. Gülməmməd əmi kənd camaatı ilə çox az təmasda olurdu. Onun əsl adını belə çoxları bilmirdi. Hamı onu Leskovun "Selivan"ı kimi uyuq bilirdi. Lakin son anda məlum oldu ki, onu uyuq adlandıranlar özləri uyuq imiş.

Gülməmmədin oğlanlarından biri orta məktəbi bitirib Qorki şəhərindəki Ali Milis məktəbinə daxil olmuşdu. Buranı əla qiymətlərlə bitirəndən sonra onu təyinatla Moskva vilayətinin hansısa şəhərinə işləməyə göndərmişdilər. Qorbaçovun "Yenidənqurma"nı yenicə meydana atdığı dövrlər idi. Gülməmmədin oğlu üzərlərində onlarla ölüm, oğurluq olan 9 nəfərlik bir bandanı təkbaşına zərərsizləşdirmişdi. Demə o, institutda oxuduğu dövrdə "Mutay" adlı bir şərq idman növü ilə ciddi məşğul olmuş və çoxlu uğurlar qazanıbmış. Beləliklə onun vaxtından

öncə rütbəsi artırıldı, ödülləndirildi və təyinatla doğma rayonlarına göndərildi. Gülməmməd kişi bir andaca dönüb oldu Gülməmməd müəllim. İşdən çıxdı, kənd camaatı ilə qaynayıb-qarışdı və bəlli oldu ki, o, çox yaxşı və mehriban adam imiş.

Nicatın digər əmisi Məlik kişi idi. Çox kənd camaatı kimi onun da  çörəyi Rusiyadan çıxırdı. Ara-sıra Moskvaya gedər, bəzən uzun müddət orda qalardı. Elə bilməyin ki, o da başqaları kimi bazarların birində alver edirdi.-Xeyr! Onun çörəyi tamam başqa şeydən çıxırdı. Məlik kişi əla rəqs etmək bacarığına malik idi. Rusiya ilə bağlı olanlar bilirlər ki, Moskvada metroların qarşılarında orkestrlər çalır. Bəzi musiqiçilər boş vaxtlarında orada gündəlik dolanmalarını təmin edərlər. Məlik kişi də orkestrin sədaları altında rus babuliyaları ilə sındıra-sındıra oynayırdı. Metronun yaxınlığında yerləşən bazarda çoxlu azərbaycanlı çalışırdı. Onlar Məlik kişinin oynadığını eşidən kimi işlərini buraxıb tamaşaya yığışar, onun başına şabaş səpərdilər. Məlikin sındırmağından milislər də xoşlanır, qıraqda dayanıb tamaşa edir, həzz alırdılar. Məlik kişi də ara-sıra onları "görür", qazandıqlarından, özü demiş, beş-on manat onların cibinə basırdı. Başqalarının bütün günü min əziyyətlə qazandığını Məlik kişi yarımca saatda qazanırdı. Çox baməzə kişi idi. Bir dəfə Moskvaya gedəndə onunla bir vaqona düşmüşdük. Məni görüb sevindi. Qatar Qudermesə çatanda va-

qonumuza bir çeçen mindi. Məlik dayı onun Leninqradda oxuduğunu eşidib dedi:

-Səninlə onu yarışdıraçağam. Uduzsan səni kənddə biabır edərəm.

-Birdən qalib gəlsəm necə?

O, bir anlıq fikirləşdi.

-Moskvada qaldığın müddətdə bütün xərclərin mənim boynuma.

Çox sevindim. İndi qalırdı o çeçeni yenmək. Mən qalib gəldim. Hiss etdim ki bu Məlik kişinin çox da xoşuna gəlmədi. Amma ayrı əlacı yox idi, söz vermişdi...

Moskvada qaldığım bu bir ayın ərzində mən Məlik kişinin başına nə oyun açdım, bunu oxucular özləri təsəvvür etsin. Yazıq kişi özü kolbasa yeyir, mən isə ondan hər gün təzə ət tələb edirdim. Onu sözünü tutmamaqda ittiham edib kənddə biabır etməyimdən qorxub hər arzumu yerinə yetirirdi. Arasıra hirslənib məni tərs-tərs süzür, deyirdi:

-Heyif ki, oxumuşsan, yoxsa səni öldürərdim.

Çox da mülayim adam idi. Amma, elə ki, içki içdi, oğul istəyirdim ki, onun qabağında dayansın. Bir dəfə qonşuluğumuzda toy idi. Məlik kişi sərxoş halda toyda "Cücələrim"i oynayırdı (bu mahnını oynamaqda onun xüsusi yetənəyi vardı). Bir az oynayandan sonra adəti üzrə əli ilə musiqiçilərə "dayan" işarəsi verdi. Cibindən bir onluq çıxardıb musiqilərin masasına atdı və üzünü müğənniyə tutub

"Cücələrim"i oxumağı tələb etdi. Müğənni imtina etdi. Əsl mərəkə də elə bundan sonra başlandı. Mikrofonu müğənninin əlindən qapıb, masaya çırpıb, sındırdı. O, bir əlini mağarın dirəyinə, bir əlini isə belinə söykəyib, müğənninin oxumasını gözləyirdi. Daha nələr olacaqdı, bunu bir Allah bilir. Hamı kimi mən də bir qıraqda dayanıb tamaşa edirdim. Bu zaman sərpayı mənə yaxınlaşdı:

O eşitsə ancaq səni eşidər, xahiş edirəm kömək elə.

-Mən nə etməliyəm ki?

-Onu sakitləşdir və evinə apar.

Əlacsız qalıb Məlik kişiyə yaxınlaşdım. Hərçənd, məni eşidəcəyinə ümidim çox az idi. Məni görən kimi qucaqlayıb öpdü və:

-Yanımda dayan, indi mənimlə oynayarıq.

Mən də onu möhkəm qucaqladım və qulağına:

-Məlik dayı, olar səndən bir xahiş edim?

-Niyə olmur, de görüm.

-Olar ki, oynamayıb evə gedəsən?

-Niyə olmur ki, qurbandı sənə.

Məlik dayı bunu dedi və arxasına boylanmadan düz evinə yollandı. Müğənninin canını Məlik kişinin əlindən qurtardığım üçün kənddə hörmətim ikiqat artdı. Məlik kişi də belə Məlik kişi idi. Deyəsən, mətləbdən uzaq düşdüm. Biz axı Bəhramdan danışırdıq.

Bəhram Nicatın qəhrəmanlıqlarından az-çox xəbərdar olandan sonra Bakıya qayıtmağı qərara aldı.

Amma Nicat bir yağlı əppək olub yoxa çıxdı. Bəhram onu görməsə də qayıda bilərdi. Amma olan qalan pullarını Nicata vermişdi. Əlində olan az pulunun da Nicatın elə birinci günü onunla tanış etdiyi Lena axırına çıxmışdı. Bu yoxa çıxmaqla Nicat düz 6 ay itib-batdı. Məcbur qalan Bəhram bazarda yük daşımaqla həm özünü, həm də artıq onun boğazına keçmiş Lenanı təmin edirdi. Bu qız ehtiraslı öpüşləri ilə Bəhramı əməlli başlı məftun etmişdi. O Lenanın əsirinə çevrilmişdi. Ümumiyyətlə qara kişi sarı qızlarla tez reaksiyaya girir. Bəhramın Lenaya bu ehtiraslı məftunluğu onun gözlərini elə kor etmişdi ki, o, nə xəstə atasından, nə də arvad-uşağından xəbər tutmurdu. Yelena isə ərə getmək, ailə qurmaq həvəsində deyildi. Kəndən şəhərə gələn bu qıza gündəlik içki, bir qafqaz əsilli ehtiraslı kişi və bir də ev lazım idi. O, öyük əziyyətlə müqəddəs yerləri ziyarət edən Bəhramı da içkiyə aludə etmişdi.

Bu hadisədən bir neçə il keçmişdi. Artıq Bəhramın xəstə atası vəfat etmiş, arvadı isə oğlunu yanına alıb Bakıya, qardaşına pənah gətirmişdi. Özünə uşaqlıq dostu bildiyi Nicat hətta atasının ölüm xəbərini belə ondan gizlətmişdi. Nicat isə öz keyfində idi. Tez-tez Bakıya gəlirdi. Burda da özü demişkən bir neçə cananı vardı.

Onun yalançılığı, şit-şit hərəkətləri yelbeyin qızların o qədər xoşuna gəlirdi ki, desəydi ikini ikiyə vuranda 4 yox, 5 edər ona inanardılar. Nicat

sonrakı ömrünü də avaraçılıqla başa vurdu. O ki, qaldı Bəhrama...

Hər şeyin bir sonu olduğu kimi ehtirasın da sonu olur. İllər yel qanadlıdır. Yaşadığımız həyatın ağ-qara siçanları bir birini əvəz etdikcə ömür gödəlir.

Bu minvalla Bəhram düz 23 il Rusiyada yaşadı. Gülzar xala isə min əziyyətlə gecəni gündüzə qatıb oğlunu böyütdü, oxutdurdu. İndi o, Bakıda böyük bir zavodun baş mühəndisi vəzifəsini daşıyırdı. Bir gün gecə saat 3-də qapı döyüldü. Gülzar xala yuxulu-yuxulu durub qapını açdı. Qapıda bir kişi boynunu büküb dayanmışdı. Gülzar xala onu çətinliklə tanıdı, evə dəvət etdi. Oğlunu da, gəlinini də oyatdı. Onu yedizdirdilər, üst-başını təmizlədilər. Bu...o idi...

# Qar

Uşaq idim, hardasa 9-10 yaşım olardı. Yanılmıramsa noyabr-dekabr ayları idi, qar hələ yağmasa da, təbiətdə hər şey tezliklə qarın hər yeri ağ örpəyə bürüyəcəyindən xəbər verirdi.

Yeni eranın başlamasına sayılı vaxt qalırdı. Ağlım bir o qədər kəsməsə də uşaq ağlımın süzgəcindən müəyyən nəsnələri keçirə bilirdim.

O vaxtlar şəhərdə IX mərtəbəli bir binada yaşayırdıq. Bizim mənzil dördüncü mərtəbədə idi. Yaşadığımız binanın lifti tez-tez sıradan çıxırdı. Hətta bəzən liftin içində saatlarla qalan vaxtlarımız da olurdu. Heç yadımdan çıxmaz, bir dəfə lift yeddinci mərtəbədə ilişmişdi, yaşlı bir qadın da içində. Qapıbir qonşumuz olan və məndən 4-5 yaş böyük olan Sahiblə köməkləşib böyük çətinliklə liftin qapısını açaraq qadını xilas etdik. Qadın qorxu və həyəcandan huşunu itirib bayılmışdı. Çox güman, binanın hansısa mənzilinə qonaq gedirmiş. Yoxsa buranın daimi sakinlərindən olsaydı bu işlərə, Məşədi İbad demiş bir növ adətkərdə olardı, heç bir qorxu hissi də keçirməzdi.

Binada yaşayan daimi sakinlər arasında hər dəfə lift sıradan çıxanda onu növbə ilə düzəltmək gələnək halını almışdı. Bu dəfə növbə bizim idi. O da xatirimdədir ki, hər dəfə Evlər İdarəsinə ustanın

dalınca gedib çağırmaqdan binamızın bütün sakinləri cana doymuşdu. Üzbəüz binanın 6-cı mərtəbəsində yaşayan Valeri adlı bir rus balasını (deyəsən o da hansısa başqa bir Evlər İdarəsinin lift ustası idi) köməyə çağırdıq, onun zəhmət haqqını isə binamızın hər dəfə bir sakini ödəyirdi.

Bizdən bir mərtəbə aşağıda-üçünücü mərtəbədə Səxavət adlı yaşlı bir kişi yaşayırdı. Səxavət baba yalnız yaşayırdı. Həyat yoldaşı uzun illər öncə xərçəng xəstəliyindən dünyasını dəyişmişdi. Tək yaşayırdı deyəndə, oxucular elə bilməsin ki, onun heç kimi yox idi. Səxavət babanın bir oğlu və bir qızı var idi. Qızını köçürmüşdü, artıq bir nəvəsi də olmuşdu, oğlu Həmid isə Moskvada ticarətlə məşğul idi. Çox vəfalı oğlan idi. Tez-tez atası ilə zəngləşir, onun problemləri ilə ilgilənir, hal-əhval tuturdu. Ayda, iki ayda bir atasına baş çəkməyi yaddan çıxarmazdı. Səxavət baba da həmişə oğlundan ağız dolusu danışar, onunla fəxr edərdi. Həmidin atası ilə söhbətlərindən o yadımda qalıb ki, Moskvada işi heç də yaxşı deyildmiş, polislər onlara imkan vermir, rus millətçiləri tez-tez bazarı dağıdır və b.

-Bakıda özümə bir münasib iş tapa bilsəydim, bir daha Moskvaya qayıtmazdım-deyirdi.

Səxavət baba xətrimi çox istərdi. Həmişə mənə ”nəvəm” deyə müraciət edirdi. Atamdan yaşca böyük olmasına baxmayaraq bir-birilərinə qırılmaz

dostluq telləri ilə bağlanmışdılar. Necə deyərlər, dostluq yaşa baxmır.

Məni axtaran hər kəs bu duzlu, məzəli söhbətləri ilə adamı valeh edib sirli, sehrli bir aləmə aparan Səxavət babanın yanında tapardı. Öz evimizdən çox onun yanında olar, bəzən dərslərimə də orada hazırlaşardım. Valideynlərim isə bundan qətiyyən narahat olmurdular. Atam buna görə məni arada tənbeh etmək istəsə də, anam buna imkan vermirdi:

-Uşağa dəymə, yəqin yenə Səxavət babanın söhbətlərinin sehrinə düşüb. (Anam da mənim dilimlə onu Səxavət baba deyə çağırırdı).

Bir dəfə, gecə saat 12-də Səxavət babadan ayrılıb evə gələndə atam məni dəhlizdə qarşıladı.Yorğunluqdan həmişə erkən yatmağa adət edən atam bu dəfə yatmamışdı, deyəsən məni gözləyirdi.

-Ay oğul! Niyə tez-tez gedib qocanı narahat edirsən? Yaşlı adamdı, istirahətini pozma.

Mən isə atamı and-amanla inandırırdım ki, məni Səxavət baba özü çağırır. Babanın ağzı ilə deyirdim:

-Ürəyim çox sıxılır. Özümü lap yalnız hiss edirəm. Vaxt tapan kimi babanı ziyarət elə. Baba-nəvə dərdləşək.

Atam susdu, məni başdan ayağa süzüb, dedi:

-Yaxşı, get yat.

O mənə yeniyetməlik, gənclik xatirələrindən, mən isə ona uşaq macəraları ilə dolu şirin məktəb

həyatından danışardım. Tez-tez mənə məsləhətlər verər, sözü məndən ala bildinmi?-deyərdi.

Bu nəsihətlərin bir neçəsi uşaqlıq yaddaşıma necə həkk olubsa heç zaman yadımdan çıxmır. Örnəyi, Səxavət baba qabaqcadan danışmağı sevməzdi. Kimsə sabah harasa gedəcəyindən, hansı işi görəcəyindən danışırdısa və bu zaman "Allah qoysa" demirdisə həmişə sakit görünən qoca özündən çıxardı.

Mənə isə tez-tez nəsihətlər edər, deyərdi:

-Mən bu sözləri sənə deməyim heç də o demək deyil ki, səni yorum. İstəyirəm, mənim həyatda etdiyim yanlışları sən təkrarlamayasan, dediklərimdən bir nəticə çıxarasan.

Günlər bir-birini əvəz edib, 2000-ci ili yaxınlaşdırdıqca insanlar arasında vahimə doğuran söhbətlər də artırdı. Danışırdılar ki, yeni il olmayacaq; bilgisayarlar öz aralarında savaş aparıb, dünyanı dağıdacaqlar; dünyanın sonu artıq çatmışdır və b. Bütün bu söhbətlər məni çox qorxudurdu. Axı mənim hətta uşaqlıq yaşıma sığmayan arzularım vardı. Böyüyəndə coğrafiyaçı olmaq istəyirdim. Qorxurdum, arzularım ürəyimdə qalar. Məni ən çox qorxudan isə yaxınlarımı itirmək təhlükəsi idi. Bəzən xəlvətə çəkilib ağlayırdım da.

Nədənsə son zamanlar Səxavət babanın da bu mövzuda söhbətləri çoxalmışdı. Heç yadımdan çıxmaz, bir gecə işıqlar sönmüşdü. Bu məni əməlli-başlı qorxutdu.

Öz-özümə dedim:

-Deyəsən hər şey bitdi, bu artıq sondur. Eşitmişdim ki, bəlalar çox zaman gecələr nazil olur. Aradan bir-iki dəqiqə keçdi. Bu müddətdə ölülər aləmindən tutmuş, deyilənə görə, zəhəri səkkiz batman olan ilanlar-əqrəblər aləminə qədər səyahət etdim. Nəhayət Səxavət baba bir şam tapıb gətirdi. Ürəyim yerinə gəldi. Özümü lap macəra filmlərinin iştirakçısı kimi hiss edirdim.

Çox vaxt o danışa-danışa məni yuxu tuturdu. Hətta bir neçə dəfə atam yatmış vəziyyətdə məni evə qucağında aparmışdı.

Səxavət baba dindar idi. Özü demişkən namazını, orucunu heç vaxt "bada verməmişdi". Dinə qarşı çox həssas idi. Bütün işlərini din qanunları ilə tənzimləyərdi. Bir sözlə din onun həyatı idi. Tez-tez mənə peyğəmbər əfəndimizin hədislərindən danışardı.

Yaxşı yadımdadır, bir dəfə Səxavət baba mədəsindən əməliyyat olunmuşdu. Ramazan ayına isə bir-iki gün qalırdı. Həkimlər ona oruc tutmağı yasaq etmişdilər. Həkimlərin bu qərarından o çox üzgün görünürdü. Bir yandan da Həmiddən nigaran idi. Görünür, Moskvada yenə də işləri düz gətirmir, deyə öz-özünə düşüncələrə dalırdı. Yoxsa, Həmid məni bir an da olsa yaddan çıxarmaz-deyə fikirləşirdi. Amma qızı hər gün işdən sonra atasına baş çəkər, həkimin icazə verdiyi xörəklərdən gətirərdi.

Ona elə aludə olmuşdum ki, bir gün Səxavət babanı görməyəndə darıxırdım, hətta kövrəlirdim.

Bir dəfə ədəbiyyat müəllimimizin atası rəhmətə getdiyindən dərsdən evə tez qayıtmışdım. Yeməyimi yeyib onun yanına qalxdım. Səxavət baba televizorda maraqlı bir verilişə baxırdı. Onun bu marağını qapını gec açmağından anladım. Bir tanınmış rus kanalında dünyanın sonu ilə bağlı çox maraqlı veriliş yayımlanırdı. Qonaqlar isə tanınmış parapsixoloqlar, öngörücülər və bir neçə digər sahənin alimləri idi. Qızğın fikir dartışması gedirdi. Səxavət baba da Sovet dövrünün digər adamları kimi rus dilini yaxşı başa düşür və ara-sıra mənimçün də tərcümə edirdi. Baxışlarından əsəbi olduğunu aydın sezmək olurdu. Onu özündən çıxaran, verilişə dəvət olunan alimlərin izləyiciləri qorxutması idi. Həmin gün evə həmişə olduğundan da gec qayıtdım. Tənbeh də ki, öz yerində.

Bir gün Səxavət baba mənə öz başına gələn maraqlı bir hadisə danışdı. Baba deyirdi:

-Bir dəfə işdə tapşırığımı vaxtından öncə yerinə yetirib, evə tez gəldim. Evdə sıxılacağımı düşündüm, çünki həmişə evə eyni vaxtda gəlməyə alışmışdım. Bir az parkda gəzib, necə deyərlər, vaxtımı öldürməyi qərara aldım. "Yorğun iş qrafikindən sonra bir az dincəlmək pis olmaz"-deyə düşündüm. İş yerimizin lap yaxınlığında yerləşən bu park kiçik olsa da çox gözəldi və məhz buna görə də günün

əksər vaxtlarında insanlarla dolub-daşırdı, xoşbəxt cütlüklər, körpə uşaqlar, yaşlı adamlar, bir sözlə, məmə yeyəndən pəpə deyəndən qədər hər kəs bu bağa gələrdi.

Nə başını ağrıdım, keçib bir oturacaqda əyləşdim. Əlimdəki "Bakı" qəzeti vasitəsilə günün xəbər mənzərəsi ilə tanış olurdum. Bu zaman bir qızla oğlanın mənə tərəf yaxınlaşdığını gördüm. Onların yanımdakı boş yerlərdə oturub dincəlmək istədiklərini zənn etdim. Amma tez də fikrimdən daşındım. Axı, mənə gəlib çatınca hələ iki boş oturacaq da vardı. Onlar isə mənim əyləşdiyim oturacağı nişana almış kimi düz üstümə yeriyirdilər. Gənclər mənə çatınca ürəyimdə min fikir dolaşdı. Bəlkə pul istəyəcəklər, ya da hansısa ünvanı soruşacaqlar. Hər halda düz mənə sarı gəlmələri heç də səbəbsiz deyildi.

Yaşı 25-30 arası olan bu gənclərin biri keçib sağımda, biri isə solumda əyləşdi. Qız hicablı idi, əlində də müqəddəs bir kitab tutmuşdu. (Kitabın müqəddəsliyini onun qiymətli, zərli bir parçaya səliqə ilə büküldüyündən anladım). Salam verdilər.

-Əleyküm salam.

-10 dəqiqəlik vaxtınızı ala bilərikmi?

-Buyurun, o nə sözdür?!

-Yaxşısı budur, uzatmadan keçək mətləbə. Uzaqdan gələ-gələ sizin xoş simanız bizi özünə

cəlb etdi və sizi xəbərdar etməyi özümüzə borc bildik.

Yerimdə donuxub qaldım. Bunlar məni nədən, kimdən xəbərdar etmək istəyirlər, axı mən nə etmişəm..? Öz-özümə səbirli olmaq, işin axırını gözləməyi tövsiyə etdim.

-Yəqin ki, siz 2000-ci ilin olmayacağı barədə eşitmisiniz. Dünyanın sonuna bir neçə gün qalıb. Mömin insana bənzəyirsiniz, biz sizin kimi insanların tələf olmasına razı deyilik. İstəsəniz biz sizi ölümdən xilas edə bilərik.

-Axı bu necə mümkün olacaq, heç də inandırıcı görsənmir?

-Biz Nuhun gəmisinə bənzər bir gəmi düzəltmişik. Siz bu gəminin sakinlərindən biri olmalısınız. Bu sizin üçün yeganə nicat yoludur. Bütün dünya suya qərq olanda, ətraf nəhəng okeanı xarıtladanda siz və sizin kimi digər əməlisaleh insanlar bu gəminin içində əmində olacaqsınız.

Onlar növbə ilə, dayanmadan danışır, tez-tez "Müqəddəs kitab" dedikləri kitabı açır, mənə tarixi örnəklər göstərirdilər. Öncə bu kitabı ya "İncil", ya da "Tövrat" zənn etdim. Kitabı onlardan alıb baxmağa bir neçə dəfə cəhd etsəm də, onlar kitabı verməkdən imtina etdilər. Soruşdum:

-Sizin Allahın İslam peyğəmbərinə qiyamət haqqında buyurduqlarından xəbəriniz varmı?

-Necə bəyəm?

Allah "Qurani-kərim"də öz peyğəmbərinə buyurub ki, qiyamətin vaxtını məndən başqa heç kəs bilmir.

Onlar mənim suallarımdan məharətlə yayınırdılar.

Qısası, məndən istədikləri 10 dəqiqə artıq 40 dəqiqəni ötmüşdü. Baş örpəyinin altından sarı saçları aydın görünən və Azərbaycan türkcəsində oğlandan daha yaxşı danışan qız:

-Bizə sizinlə əlaqə yaratmaq üçün telefon nömrənizi verə bilərsiniz? Gəmi yola düşəndə sizi xəbərdar edək.

Bir anlıq telefon nömrəmi onlara vermək istədim. Düşündüm ki, onlarla daha yaxın olub işlərini öyrənsəm pis olmaz. Tez də fikrimdən daşındım. Hardaydı məndə o vaxt ki, onların dalınca düşüb işlərini öyrənim. Çox tərəddüddən sonra dedim:

-Bağışlayın. Mən telefon işlətmirəm.

-Siz rusca bilirsinizmi?-oğlan soruşdu.

Mən rusca yaxşı bilirdim. Uzun illər Rusiyada yaşamışdım.

Qız çantasından rus dilində nəşr olunmuş qəzet və dərgilər çıxarır, gözünü ağzıma dikib cavab gözləyirdi. Mən onların məni bu qəzet-jurnallarla daha bir neçə dəqiqə yubadacaqlarını duyub, cavab verdim.

-Bağışlayın, mən rusca danışa bilmirəm.

Bu yolla özümü üzücü, mənimçün heç də maraqlı olmayan söhbətdən xilas etdim. Anadolular demişkən: "Ucuz qurtulduq".

Səxavət baba şirin-şirin danışır, mən isə onun söhbətlərindən doymurdum. Söhbət o qədər maraqlı idi ki, heç vaxtın fərqində belə deyildik. Otağın nəfəsliyi açıq idi. Bayırda narın-narın qar yağır, külək isə ara-sıra qar dənələrini açıq nəfəslikdən üstümüzə atırdı. Səxavət baba söhbətinə ara verən kimi mən qonşu otağa keçib saata baxdım. Saat gecə ikini ötmüşdü. Evə tələsmək lazım idi. Bu dəfə daha möhkəm danlanacağımı, hətta kötəklənəcəyimi belə yəqin etmişdim. Onunla sağollaşıb evə getdim.

Bu duzlu, məzəli qoca ilə sonuncu görüşümdən 11 ildən çox vaxt keçir. Hər dəfə qar yağanda Səxavət babanın maraqlı söhbətlərini xatırlayıram. O artıq bu dünyada yoxdur. Eşitdim ki, ürək çatışmazlığından vəfat edib. Özü demiş, "nahaq dünyadan haqq dünyasına" köçüb. Mən isə artıq balaca deyiləm, 20 yaşım var, universitet tələbəsiyəm.

Səxavət babanı mənə xatırladan bir səbəb də dünyanın bu il dağılması xəbəridir. 2012-ci il yaxınlaşır. 12-il öncə olduğu kimi yenə falçıların, öngörücülərin fikirləri cəmiyyət arasında dolaşmaqdadır. Bu isə məni yaman qorxudur. O vaxtdan çoxlu arzularıma yetişsəm də, hələ də cavabsız qalan suallarım çoxdur. Çiynimi mətbəxin pəncərəsinə söykəyib bayıra baxıram. Hava çox şaxtalıdır. Şaxta adamın iliyinə qədər işləyir. Heç dərsə də vaxtı-vaxtında gedib-gələ bilmirəm. Qar yağır, deməli, göylər dünyanın ağaracağına, saflaşacağına inamını hələ də itirməyib...

## Metro

Son günlər çox yorğun idim. O qədər problemlərim vardı ki, gərginlikdən başımı qaşımağa vaxtım yox idı. Gecələr saat 12-də evə gələr, səhər 8-də isə III mikrorayon dairəsində olar, tələbə dostlarımla birləşib dərsə yollanardıq. Bu gün də həmişəki kimi tez oyanmalı, yüngülcə qəlyanaltı etməli idim (səhərlər qəlyanaltı etmədən evdən çıxmağa adət etməmişəm – daha doğrusu evdəkilər buna müsaidə etmirlər). Əbdürrəhman Caminin bu fikrinə bütün ömrüm boyu əməl etmək fikrində idim – “Səhər ağzına bir şey qoymamış evdən çıxma, çünki toxluq səbr və təmkinlik nişanəsi, aclıq əsəbilik və qanıqaralıq əlamətidir”. Atamla anam rayona-yaxın qohumlarımzdan birinin qırxına getdiyindən bu dəfə paltarlarımı da özüm ütüləməli idim.

Səhərlər yuxudan ayılmağa zorluq çəkirəm. İndi də saatın zəngi məni 7:00-da oyatsa da yatağımda uzanıb fikirləşir, özümə gələ bilmirdim. Nə başınızı ağrıdım, zorla yataqdan qalxıb paltarlarımı ütüləməyə başladım, amma nə qədər axtardımsa sevimli qara qalstukumu tapa bilmədim ki, bilmədim. Zalım oğlunun malı elə bil yağlı əppək olub göyə çəkilmişdi. Doğrudur, mən əlamətlərə çox az inanıram, ancaq şəhərə tələsməyimlə qalstukun itməsinin arasında bir oxşarlıq vardı, sanki. Nə isə, çox axtarışdan sonra nəhayət ki, paltarların arasında qa-

lıb əzik-üzük olmuş qalstuku tapa bildim. Onu ütüləmək isə mənim əməlli-başlı vaxtımı apardı.

Bu günkü iş qrafikim həmişəkindən də ağır idi. Kiçik dayımın qızının ad gününə çağrılmışdım. Fürsət varkən nənəmə dəyməli idim. Üç ay olardı ki, nənəmə baş çəkə bilmirdim. Yaşı 80-i ötmüş nənəmin məzəli-duzlu söhbətlərindən doymaq olmur.

Evdən çıxanda Allah-Allah edirdim ki, heç olmasa yolda Mahmud kişi ilə rastlaşmayım, yoxsa şəhərə heç axşama da gedib çata bilmərəm. Mahmud kişi bizim qapıbir qonşumuzdur. Zalım oğlunu elə bir işi-gücü yoxdur. Küçə qapısının ağzında qoyduğu bir daşın üzərində oturub yoldan keçənləri seyr edir. Kimi gördüsə çənəsinin altına salır. Sonra oğul istəyirəm ki, onun əlindən, bağışlayın, çənəsindən qurtulsun. Örnək verim, danışır ki, bu ətraf bağların hamısı mənim babamın olub. Sovetləşmə zamanı əlimizdən alıblar. Əgər mən istəsəm camaatı bu bağlardan köçürərəm, sadəcə özüm istəmirəm. Özü də “sadəcə” demir ha, mən belə yazıram – o, bir dostumun sözü ilə desəm “rus türkcəsi”ndə deyir – “prosto”... Hə, onu deyirdim axı – Mahmud kişi, atam demiş, başlayır “erkək keçiləri sağmağa”. Ağsaqqal heç yerdə işləmir, nə ilə dolandığını isə bir Allah bilir. Beləliklə, küçə qapısından çıxan kimi “yaxalandım”.

- Bura gəl görüm, sən axı ədəbiyyatçısan. İndi səni yoxlaram. De görüm "Leyli və Məcnun"u kim yazıb?

- Necə yəni kim yazıb? Nizami, Füzuli.

- Gördün, bilmədin. Onu öncə Nizami yazıb, amma yarımçıq qoyub, sonra Füzuli tamamlayıb.

Məni qeyri-ixtiyari gülmək tutdu. Hiss etdim ki, əsəbləşdi.

- Gülmə, böyüklə danışanda gülməzlər. Ən tanınmış akademiklərlə belə bu barədə "spora" girərəm.

Allah üzümə baxdı ki, qonşumuz Cəmil gəlib yetişdi. Mahmud kişi mənimlə söhbətinə ara verən kimi tez aradan çıxdım.

Onu da deyim ki, bizim küçədə Mahmud kişi kimi Əbdürrəhim bəy Haqvediyevin "Marallarım" dediklərinə bənzər daha bir neçə tip var və bunların hər birinin özünəməxsus məziyyətləri var.

Mahmud kişidən ayrılıb bir neçə metr getmişdim ki, qonşumuz, ləqəbi "qoca" olan Salman kişinin "əlinə keçdim". İnəklərini sağıb qurtaran Salman kişi ara-sıra yola baxır, söhbət üçün adam axtarırdı. Söhbətlərinin də əsas mözusu bundan ibarətdi ki, mən ata-anama yaxşı baxırdım, indiki cavanlar ata-analarına pis baxırlar. Və yaxud indiki cavanlar arvaddan qorxurlar. Arvadın günahı oldu-olmadı gərək ayda heç olmasa bir dəfə onu möhkəm döyəsən və s. Soruşurdum:

- Ay ağsaqqal, arvadın günahı yoxsa onu necə döyəsən?

Məni tərs-tərs süzdü:

- Deyəsən sən də arvaddan qorxan olacaqsan. Nə var bəhanə tapmağa. Başından bir tük dart at xörəyə, de ki, xörəkdən tük çıxdı.

Heç yadımdan çıxmaz, bir dəfə Salman kişi hərbi xidmətdə olan oğluna baş çəkməyə getdi.Yükü ağır olduğundan məni də özü ilə köməkçi götürdü. Əsgərlərlə görüş saat 15-də başlanmalı idi. Bir bəstəboy zabit görüşə gələnlər üçün nitq söyləyirdi. Guya əgər gəldiyiniz yelərdən burda başqa əsgərlər xidmət edirsə, onlara evlərində baş verən hadisələrdən danışmayın. Yoxsa ki, qonşu qonşu ilə dalaşdı, kimin atası arvadını döydü və s. Əsgərlər belə şeyləri eşidir, fikirləri qalır evdə və yaxşı xidmət edə bilmirlər.

Bu zaman Sabirabaddan gəlmiş bir valideyn (onun Sabirabaddan olduğunu görüş yerində Qocanın onunla mübahisəsi zamanı bildim. Çünki, qoca oğlunu yaddan çıxardıb onunla möhkəm mübahisə edirdi) komandirə səsləndi:

- Cənab komandir! Yəni indi elə bir kişi var ki, arvadını döyə bilsin?

Pah atonnan, elə bil Qocaya od qoydular. Tez yanındakı bir kötüyün üstünə qalxdı, ucadan qışqırdı:

- Mənəm o kişi!

Camaatdan bir gülüş qopdu ki, gəl görəsən. Yanımdakı qadınlardan biri qocanı tərs-tərs süzüb soruşdu:

- Mənə bax, ey, nə taqsırı var arvadın, yazığı döyürsən?

Qoca cavab verdi:

- Təqsiri oldu-olmadı, arvad gərək ayda bir-iki dəfə döyülsün.

Qadın Qocanı bir müddət nifrətlə süzüb astadan dilləndi:

- Bu köpək oğlu, lap manyak imiş ki...

Yaxşı ki, Salman kişi bu sözləri eşitmədi. Onun başı bu mövzuda digər bir qadınla bərk mübahisəyə qarışmışdı. Yoxsa əməlli-başlı tufan qopardı.

Salman kişinin bir məziyyəti də vardı ki, kişilərin toyda oynamasının qəti əleyhinə idi. “Kişi oynamaz” deyərdi. Hansı gününüzə oynayırsınız, ətin kilosu 8 manatdır. Belə deyə-deyə o, hər dəfə ətin qiymətini qaldırardı və qəssablar da elə bil onun sözünə bənd idilər –elə bil ki, qoca bu sözü deyər-deməz qəssablar eşidər, səhəri əti bahalaşdırardılar. Amma öz aramızdır, ara-sıra mənə yaxşı nəsihətlər də edərdi Salman dayı. Örnək verim – deyərdi ki, çalış, həmişə özündən yaşda böyük olanlarla oturdur, tez müdrikləşərsən.

Onu da qeyd edim ki, Mahmud kişiyə nisbətən Qocanın əlindən qurtulmaq nisbətən asan idi. Elə

ki, uzun bir söhbət başlayacağını hiss edirdim, deyirdin:

- Qoca! Məni bağışla, vacib işim var, getməliyəm. Qoca da əlacsız razı olar, deyərdi:

- Eh, sənə güvəndiyim dağlar, sənə də qar yağarmış.

Qocadan ayrılıb avtobus dayanacağına təzəcə yetişmişdim ki, dükandan çörək alıb qayıdan digər bir "maral"la rastlaşdım. Adı Nəriman olan bu qonşumuz Mahmud kişidən də, Qocadan da fərqlənir. Onun çox danışmaqla arası yoxdur. Amma elə ki, səhər-səhər onun üzünə çıxdın həmin gün bir molla tap ki, bəri başdan sənin həmin günki işinə bir "fatiha" versin. Adamı görən kimi soruşur:

- Hara gedirsən, nə üçün gedirsən, əlində nə aparırsan?

Günün hansı vaxtında getsən görərsən dayanacaqda durub "müştəri" gözləyir. Adamla söhbətin şirin yerində bir də görürsən deyir:

- Əşi, sən də mənə bir "obed" (- bu da "rus türkcəsi" olsun...) vermək istəyirsən səhərdən min dəfə demisən. Həmin adam da xəcalət çəkərək:

- Ay Nəriman! "obed" istəyirsən verim də. Mən haçan dedim ki!?.

Nəriman kişiyə də elə bu lazım idi. Dərhal:

- Mən içkisiz "obed" eləmirəm, a.

Peşman idin ki, onun yanında asqırasan. O saat:

- Beş manat səndə.

- Niyə, ay Nəriman kişi.

- Necə yəni, niyə, asqırıb məni diksindirdin, çıldağ pulu ver.

Qısası, Nəriman kişi nələrdən pul çıxarmırdı, bax onu bir Allah bilir.

Nəriman kişini görən kimi avtobus dayanacağının arxasına əkildim. Fikirləşdim ki, ötüb keçəndən sonra evə qayıdım. Bu gün heç bir işimin alınmayacağına qəti əmin idim. – Birinci dəfə deyildi ki, dəfələrlə sınaqdan çıxarmışdım. Amma dayım qızının ad gününə gedəcəyimi düşünüb evə qayıtmaq fikrindən daşındım.

Nəriman kişinin bədliyini elə dayanaqdaca hiss etdim. Avtobus yarım saat geçikdi. – Bu gün başıma bir bəla gəlməsə yaxşıdır – düşündüm.

Qonşuların bədniyabət adlandırdıqları Nəriman kişinin sifətindən böyük çətinliklə qurtulub saat 12:30-da metronun "20 Yanvar" stansiyasına yetişdim. Çünki, gecikdiyimdən şəhərdəki işlərimi təxirə salıb, bir başa ad gününə yollanmağı qərara aldım. Dayımgilin kəndinə isə avtobus "20 yanvar" stansiyasından gedirdi. Bu gənclik yaşımda bir şeyi dəqiq qət etmişəm. Həyatda xoş anlar dalbadal gəldiyi kimi bəd anlar da ard-arda gəlir. Tərslikdən burda da avtobusa gecikdim. Sonrakı maşınlardan biri camaatı yarı yolda düşürüb qaraja getmiş, digəri isə kənd camaatını ziyarətə aparmaq bəhanəsi ilə aradan çıxmışdı. Burada bir saatdan yuxarı yuban-

dım. Vaxt da ki, maşallah şəlalə kimi sürətlə özünü uçurumdan aşağı tullayırdı.

Ayaqlarım da taqətdən düşmüşdü. Bir anlıq dincimi amaq istəsəm də fikrimdən daşındım. Oturacaqlar yaş idi. Yağış yağırdı. Bu azmış kimi səhərdən mülayim əsən Bakı xəzrisi artıq yavaş-yavaş bərkiyir, yağış dənələrini zərblə üzümə çırpırdı. Kəndə yolların palçıqlı olmasını təsəvvürümə gətirdikcə məni vahimə basırdı. Öz-özümə "Ay Allah, bu gün necə gün idi mən düşdüm" - dedim. Sonra da deyirlər ki, əlamətlərə inanma. İndi bir sehrli xalçanın arzusunda idim ki, ayaqlarım yerə dəymədən məni kəndə çatdıraydı.

Bir müddətdən sonra avtobus gəlib çatdı. Elə təzə yola düşmüşdüm ki, əl telefonum zəng çaldı. Yaxın dostlarımdan biri idi. Saat 4-də məni kitabının təqdimatına dəvət edirdi. Neyləyim, qayıdımmı? Bəs ad günü. Axı, dayımgilin ailəsi məndən inciyəcək. Dayımqızı nənəmin adını daşıyırdı. Onu hamımız çox istəyirdik. Elə bu düşüncələrlə də kəndə nə vaxt gəlib yetişdiyimi əsla hiss etmədim. Abşeronun şəhərə yaxın kəndlərindən sayılan bu kənd yaşılıqlarla bir o qədər əhatə olunmasa da dörd tərəfdən dağlarla çevrələnməsi özəlliklə də yaz aylarında kəndə xüsusi yaraşıq verir. Bir çatışmayan cəhəti vardı ki, hər yağışdan sonra yollar palçıq olardı. Kənd camaatı buna öyrəşsə də bu məni əməlli-başlı hövsələdən çıxarırdı.

Ad günündə çox qala bilmədim. Yaxın qohumlarımı gördüm, nənəmə baş çəkdim, dayım arvadının ləzzətindən doya bilmədiyim şirniyyatlarından daddım.

Tez-tez saatı gözdən keçirirdim. Vaxt elə bil təyyarə idi. Qanad açıb uçurdu.

Üst-başım palçıq olmuşdu. Palçığı da yaş təmizləyəndə bir az da yayılırdı. Qurumasını gözləmək lazım idi. Mənimsə vaxtım çox az idi. Artıq tədbirin də vaxtına az qalırdı. Bir müddətdən sonra qohumlarla vidalaşıb oranı tərk etdim.

Təsəvvürəgəlməz çətinliklərlə kəndi tərk etdim. Yolda başıma gələnləri oxuculara danışıb onları yormaq istəmədiyimdən (onsu da yormuşam) onları nəql etməkdən daşınıram. Artıq 16-ya 15 dəqiqə qalmışdı, mənə isə tədbirə hətta yarım saat tez gəlməyi tapşırmışdılar.

- Bəlkə, taksi ilə gedim – deyə düşündüm.

“20 yanvar” stansiyasının yaxınlığı da ki, maşallah, adama “bazar”ı xatırladırdı. Bağırtı, çığırtı və bir də ki maşınların siqnal səsləri adama danışmağa imkan vermirdi. Onlar durduqları yerin fərqinə varmadan qışqırırdılar:

-“Müşfiq”ə bir nəfər, “Hökməli kuruqu”na iki nəfər...

Taksi sürücülərinin müştəri çağırışı beynimə işləyirdi. Adam onlardan bir söz soruşmağına peş-

man olur. Mən bu olayın qabaqlar da tanığı olmuşdum.

Bir dəfə tanınmış idmançılardan biri ilə müsahibə götürmək üçün Sumqayıta gedirdim. Daha öncə telefonda şərtləşmişdik ki, saat 11-də Sumqayıtın "Göyərçin" parkında görüşək. Onda da avtobusa gecikdiyimdən taksi ilə getmək qərarına gəldim. İki manata danışıb maşına oturdum. Sürücüyə isə daha bir nəfər müştəri lazım idı. Az sonra yaşlı bir qadın bizə yaxınlaşdı. Cəmi bircə manat pulu olduğunu bildirdi. Sürücü biz onu tələsdirdiyimizdən əlacsız razı oldu. Taksi yerindən tərpənmək istəyirdi ki, cavan bir oğlan maşına yaxınlaşdı. Sürücü bir manat ödəmiş qoca qadını maşından düşürdü.

- Xala, biz Sumqayıta gedəsi olmadıq, arxadakı maşınlara yanaş - dedi.

Bilirsiniz bu, məndə necə ikrah oyatdı, amma hirsimi boğdum, danışmadım. İndi də belə hadisə ilə qarşılaşacağımdan və əsəblərimin tarıma çəkiləcəyindən qorxub taksi ilə getmək fikrindən daşındım. Tədbirə getmək fikrindən də əl çəkdim. Onsuz da çata bilməyəcəkdim. Üstəlik də üst-başım palçıq idi, bu kökdə ora necə gedə bilərdim. Metroya düşüb evə qayıtmağı qərara aldım.

Yolum "20 Yanvar" şəhidlərinin abidəsinin qarşısından keçirdi. Bir anlıq duruxdum və bu əzəmətli abidənin qarşısında dərin xəyala daldım. Axı

bu gün yanvarın 18-i idi. Böyük faciənin ildönümünə sayılı günlər qalırdı. Bəlkə də bu gün başıma gələnlərin hamısı elə bunun üçün imiş. Bəs niyə mən bu abidənin qabağına bir təsadüf nəticəsində gəlməli idim?

Adətim üzrə "Fatiha" surəsini oxuyub, salavat çevirdim və yerin altına – metro stansiyasının içinə doğru irəlilədim.

İndi də metronu gözləyirdim. Bir neçə üzücü dəqiqədən sonra nəhayət qatarın gur projektoru uzaqdan tuneli işıqlandırdı.

Bu günkü uğursuz günümün və bir də abidənin qarşısında dayanarkən keçirdiyim hisslərin təsiri altında qatara daxil oldum.

Kəndə gedərkən metroda eşitdiyim sözləri xatırladım. "Qapılar bağlanır, növbəti stansiya "20 Yanvar"... Anadolular demiş, iştə, 20 yanvar...

## Şagird

*Uşağı bütə döndərmək olmaz, yoxsa böyüyəndə səndən qurban tələb edər.*
*Ü.Hacıbəyli*

N saylı məktəb şəhərin ucqar məhəllərinin birində yerləşirdi. Məktəb şəhərin əsas magistral yollarından qıraqda qaldığından, qışda burada yollar qardan vaxtlı-vaxtında təmizlənmir, nəinki məktəblilər üçün, hətta ətrafda yaşayanlar üçün üzüntü yaradırdı. Bu dəfə Bakıya qar həmişəkindən çox yağmışdı. Yollar buz bağlamış, gediş-gəliş çətinləşmişdi. Amma sərt qışın məktəbdəki dərslərə heç bir təsiri yox idi, çünki, məktəb qışa tam hazır idi. Ötən tətil aylarında məktəb əsaslı təmir olunmuş, istilik sistemi yenidən qurulmuşdu. Bir sözlə, məktəb əməlli-başlı abıra salınmışdı.

Sözü nahaq yerə bu məktəbdən salmadım. Çünki, haqqında söhbət açacağımız qəhrəmanımız Ümid də bu məktəbin 9-cu sinifində oxuyurdu. Məktəbin təmirinə bütün şagirdlər sevinsə də, bu Ümidi qətiyyən ilgiləndirmirdi. O, dərslərini çalışmır, tez-tez məktəbdən qaçır, heç yataq xəstəsi olan anasına belə vaxtında hay vermirdi. Əlbəttə, elə zənn etməyin ki, Ümid tamamilə fərsiz idi və heç nəyə yaramırdı. Xeyr! Onun da bacardığı işlər vardı. Dərsdən çıxıb evə gedəndə görərdik ki, Ümid 5

mərtəbəli binanın həyətində balaca bir bağda düzəltdiyi quşxananın damına çıxıb deyir:

-Oğlan istəyirəm ki, mənimlə quş uçursun. Qaraquyruq düz 4 saatdır ki, uçur. Ara-sıra qazancı da olurdu Ümidin. O, həmin qaraquyruqların bir neçəsini Sabunçu bazarına çıxardar, özü demiş, daş-baş edərdi. Yol yeriyə-yeriyə həmişə üzünü göyə tutardı. Biz bunun səbəbini bilirdik. Bilirdik ki, Ümid göyə baxıb xam axtarır. Amma o, bunun səbəbini soruşanlara haçansa, kimdənsə eşitdiyi bu sözlərlə cavab verərdi:

-Adam elə  gərək göyə baxsın və ruzunu Allahdan istəsin.

Ümidin bir özəlliyi də onda idi ki, onun çox iti hafizəsi vardı. Məsələn, o, özünün yüz dənə quşunu başqasının on min quşunun içərisindən asanlıqla tapıb seçə bilərdi. Bir vaxtlar anam onun anası ilə bir yerdə işlədiyindən mən Ümidə başqalarından nisbətən yaxın idim. Və hər dəfə onun quşlarla bağlı igidliyini eşidəndə deyirdim:

-Səndə ki, belə hafizə var, niyə ondan dərsdə istifadə etmirsən:

-Eh, dərs yadımda qalmır.

Bütün valideynlər  kimi Ümidin də valideynləri onun  gələcəyinə böyük ümid bəsləyirdilər. Elə Ümid adını da uşağa ona görə qoymuşdular. Amma Ümid yaşıdlarına qoşulub dərs oxumaq əvəzinə, necə deyərlər, qaz vurub, qazan doldurmaq xəyalı-

na düşmüşdü Ümid. Beyni dumanlı, xəyalı göylərdə gəzirdi. Nə zavodların birində fəhləlik edən atası Aslan kişinin vaxtsız qocalması, nə də xəstə anasının onun taleyindən nigaranlığı zalımın heç vecinə belə deyildi.

Aslan kişi 7-ci sinifdə oxuyarkan atasını itirmişdi. Orta məktəbi min bir əziyyətlə başa vurub universitetə daxil olmuşdu. Lakin ali məktəb illəri Qarabağ savaşına təsadüf etmişdi. III kursdan təhsilini yarımçıq qoyub döyüşə yollanmışdı. Yarımçıq qalmış arzularını yeganə oğlu olan Ümidin timsalında həyata keçirmək istəyirdi. Axı Ümid heç də balaca deyildi, 15 yaşı vardı. Bir az obrazlı desək, artıq bir igidin ömrünü yaşamışdı. Bir-iki ilə orta məktəbi bitirəcəkdi. Onu qarşıda daha çətin həyat gözləyirdi. Hazırlaşıb ali məktəbə qəbul olunmalıydı. Görəsən, Ümid heç bu barədə fikirləşirdimi?

Ümidin atasının zavodda işləri heç də yaxşı deyildi. Təsərrüfat hesabına keçəndən sonra onun əmək haqqı azalmışdı, yoldaşının dərmanlarına güclə çatırdı. İşi buraxıb gedə də bilmirdi. Hara gedəydi? Axı bütün ömrünü bu zavodda keçirmişdi. Anası Ümidi yanına çağırıb, hər dəfə bunları ona qandırmaq istədikdə o hirslənərdi.

-Canımı boğazıma yığmısınız, heç bilmirəm sizin əlinizdən hara qaçım gedim?

Bəzən hətta anasını acılayırdı da.

Dərsdən evə gələn kimi ilk işi quşları yemləmək

idi. Quşları istidə, soyuqda və küləkli havada uçurmazdı. Sonra televizoru yandırar, seyrə dalardı. Boyu da o qədər uzun idi ki, ayaqları divandan bir neçə santimetr bayıra çıxırdı. Kim çağırırdı, kim ölürdü, kim qalırdı o, heç yerindən qımıldamırdı. Bir qəribə özəlliyi də vardı ki, özünü həmişə haqlı sayırdı. Əgər kimsə onu tənbeh etmək istəsəydi, cavabını on qat alırdı. Bir sözlə, o, içəri girib-çıxanlara qətiyyən önəm vermir, gözlərini televizora dikib həsrətlə serialların vaxtını gözləyirdi. Bütün serialların qəhrəmanlarını tanıyır, hətta onların şəxsi həyatlarında nə ilə uğraşdıqlarını belə əzbər bilirdi.

Son günlər Ümid heç məktəbə də vaxtı-vaxtında getmirdi. Hər gün bir bəhanə ilə dərsdən yayınırdı. Güclə göndərəndə də bir-iki dərs keçib aradan sivişirdi. Bir gün eşitdim, anası vəfat edib. Çox xanımana bir qadın idi. Adı Səkinə olsa da ziyarətə getdiyindən biz hamımız ona Məşədixanım deyə müraciət edirdik. Çoxları elə fikirləşirdi, Ümid anasının ölümündən sarsılar, bütün bəd işlərindən əl çəkər. Lakin yaxın qohumları məclisi yola verib evlərinə çəkilən kimi Ümid yenə də köhnə əməllərinə başladı.

Nə qədər ki, atası, necə deyərlər, ayaq üstə idi, ara-sıra Ümidi tənbeh edər, o da qorxub çəkinirdi. Məşədixanımın vəfatından 2 ay sonra Aslan kişinin ayaqları tutuldu, yorğan- döşəyə düşdü. Təsəvvür edin, yataq xəstəsi, özü də Ümidin ümidinə... Bu

xüdpəsənd, bədbin, özünü qızlara istətmək üçün əldən-ayaqdan gedirdi. Çox gözəl bilirdi ki, indi elə qızlar var, anlamsız hərəkətlər, yersiz sözlər danışan oğlanları xoşlayırlar.

O, təkcə evdə valideynləri ilə, həyətdə qonşuları ilə deyil, məktəbdə müəllimləri ilə də mübahisə edirdi. Heç yadımdan çıxmaz. Bir dəfə ədəbiyyat müəllimi bizə Azərbaycan bayrağı haqqında inşa yazmağı tapşırdı. Ümid bayrağımızın 3 boyalı olmasını zorla xatırlasa da, hansı boyanın nəyi ifadə etdiyini bilmirdi. Biz isə bunu ona heç vəchlə deyə bilmirdik. Müəllimə partaların arasında var-gəl edir, Ümidi tələsdirirdi.

-Vaxta az qalıb, tələs, on dəqiqədən sonra dəftərləri yığacam.

Beləcə, vaxt tamam oldu. Səhəri gün müəllim qiymətləri elan etdi. Növbə Ümidə çatanda müəllim:

-"2"-deyə acıqlı şəkildə səsləndi

Ümid:

-Nə üçün?

Müəllim inşa dəftərini ona uzatdı:

-Al, bax!

Ümid nə qədər çalışsa da boyaların anlamını ifadə edə bilmədi, bir-birinə qatdı. Təsəvvür edirsizmi, o, haqsız ola-ola yenə kürəyini yerə vurmaq istəmir, müəllimlə yersiz mübahisə dirdi.

Sinifdə bu cür hallar tez-tez baş verirdi və çox

zaman gülüş doğururdu. Yaxşı yadımdadır, bir dəfə müəllim Ümidi yazı taxtasının qarşısına çağırıb ona bir neçə sual verdi:

-Rəşid Behbudov kim olub?

-Siyasətçi.

-"Aldanmış kəvakib"in müəllifi kimdir?-

-Füzuli.

-Nizami Gəncəvinin əsərələrinin "Xəmsə" adlanmasının səbəbi nədir?

-Xəmsə şaha həsr olunduğu üçün.

Biz gülür, müəllimimiz isə əsəbləşirdi. Bu dəfə müəllim onu möhkəm danladı. Ümid müəllimi tərs-tərs süzüb icazəsiz-filansız sinifi tərk etdi.

Bizim qonşuluğumuzda Püstə adlı bir qoca qadın yaşayırdı. Heç kimə qaynayıb qarışmaz, nəinki adi günlərdə, heç bayramlarda da heç kimlə paylaşmazdı. Püstə nənənin bir oğlu vardı. Müharibədə, Leninqradın müdafiəsində beynindən zədələnmişdi. Tez-tez əsəbləşib özündən çıxardı. Onların kəndin o biri başında da həyətləri vardı. Oğlu ailə qurub təzə evə köçsə də Püstə arvad köçməmiş, az qala hər dəqiqə uça bilən daxmasında yaşamağı üstün tutmuşdu. İnsafən, oğlu səhər yuxudan oyanan kimi ilk iş kimi anasına baş çəkərdi. Tez-tez qonşuların qınaq obyektinə çevrilirdi:

-Ay Püstə, xeyrimizə-şərimizə gəlmirsən, bəs öləndə səni kim basdıracaq?

Püstə qarı da  Əbdürrəhim bəy Haqverdiyevin

yalnız bir söz-"Haqq mövcud" deyən qəhrəmanı kimi həmişə bu sözü təkrar edərdi:

-Qəlblərin sirrini Allah bilir!

Qarının oğlu bir neçə aydı ki, Rusiyada idi. Heç nəyə baxmayaraq biz qonşular Püstə arvadın qayğısına qalırdıq; bəzən bizi acılayıb qovsa belə. Anam hər dəfə təndirdə çörək bişirəndə onun üçün də göndərərdi. Oğlu iki gün idi ki, qayıtmışdı. Daha bir gecə keçdi. Növbəti gün axşamüstü Püstə nənə kiçik bir boğçanı qoltuğuna vurub ömründə ilk dəfə olaraq daxmasını tərk etdi. Səhər tezdən eşitdik ki, vəfat edib. Başı oğlunun qucağında, nəvələrinin yanında, hər bir valideynin özünə arzuladığı bir ölümlə... Çox da təntənə ilə dəfn olundu. Yəni belə də olur. Bu da sirli-sehrli dünyanın bir möcüzəsi. O ki qaldı Ümidə....

Bir gün eşitdik ki, Ümidin atası da dünyadan köçdü.

Ümid isə sərt və amansız taleyin əlində tək qaldı. Hər bazar günü səhər bir neçə qaraquyruqu bazara aparıb satır, bütün həftəni onunla dolanırdı... Dolana-dolana dolanırdı.

## Yuxu

*Namərdlə mərdi tanı,*
*El sevər mərd atanı*
*Oğul fərsiz çıxanda,*
*Öldürər dərd atanı.*

**Bayatı**

Saat 19:00-ı göstərirdi. Oyunun başlamasına bir neçə dəqiqə qalırdı. Bungünki oyun çox maraqlı olacaqdı. İki güclü komanda öz gücünü sınayacaqdı. Fərid isə artıq öz yerini almışdı.

Dərsdən yorğun gəlməsinə baxmayaraq gözlərini televizorun yaşıl meydanına kökləmişdi. O, intizarla oyunun başlandığı anı gözləməkdə idi. Əzəli rəqiblər "Milan" və "İnter" komandalarının oyunu həmişə maraqlı olur. Bu oyunu buraxmaq Fəridə görə ən azından günah olardı. Nəhayət gözlənilən an gəlib çatdı, oyun başladı. Fəridin həyəcanı daha artdı. Oyunun şərhçisi izləyiciləri komandaların heyəti ilə tanış edirdi. O, bir-bir komandaların heyətlərini açıqlayır, hansı oyunçunun iştirak edib-etməməsini onların nəzərinə çatdırırdı. Fərid heç nəyi gözdən qaçırmamağa çalışırdı. Bu zaman qonşu otaqdan ağrıyıb zarıyan bir adamın xırıltılı səsi gəldi.

-Bir içim su... Oğlum, mənə bir içim su ver.

Fərid bu səsi eşitsə də yerindən qımıldanmadı, ekrandan çəkiləsi gözü yox idi onun. bunu sükutla qarşıladı. Lakin səs ara vermirdi.

-Su, su. Oğlum mənə su ver.

-...

Oyunun başlamışdı. Atasının səsi ona mane olmasın deyə ara qapını örtdü. Atası daha bir neçə dəfə çağırsa da artıq bu səslər gəlib ona çatmırdı.

Bütün atalar sözü və məsəllərdən ən çox xoşuma gələnlərindən biri də "Kim əkdi, kim becərdi, kim dedi bağ mənimdir" atalar sözüdür. Hərdən özüm-özümə sual verirəm, bu dünya kimindir?, gərək bu dünyaya çox da bağlanmayasan Axı, ömür çox da uzun deyildir. Bir də görürsən ki, anadolular demiş "Getdi gözəlim yıllar".

Bilsəniz Fəridin atası Arif necə gözəl insan idi!. Çox söhbətcil adam idi o. Ana tərəfdən qohumluğumuz çatırdı Arif dayıya. Ara-sıra vaxt tapıb ona baş çəkərdim. Arvadı bir neçə il idi ki, rəhmətə getmişdi. Dinə həddindən artıq bağlı bir insan idi. Arif dayı canı sağ olan vaxtlarında Rusiyadakı ortağı ilə bir kooperativ açmışdı. Ortağı taxta-şalban göndərərdi, Arif dayı da burada onu emal edib satardı. Arif dayı özünün vaxtı olmadığından yaxın tanışlarından birini-Ağa adlı bir kişini satıcı götürüb, bütün hesab kitabı ona həvalə etmişdi. Ağanın seyid olduğu və ya sadəcə adının Ağa olduğunu bilmirdim. Ağa bir neçə aya bu kooperativi elə yedi,

nəinki, taxta-şalbanlar, heç onların qabığı da qalmadı. Ondan pul tələb etdikdə "mən satıb sizə vermişəm, yadınızdan çıxıb"-deyirdi. Lap təkid edəndə də ucadan deyərdi:

-Onu istəyirsiniz ki, cəddimi çağırım sizinçün!?

Cavab gələrdi:

-Ağa, qurbanın olum, cəddini çağırma, pul cəhənnəmə olsun.

Ağa da ki, arxayın dolanıb gəzərdi. Haçan puldan söhbət düşəndə deyərdi:

-Cəddimi çağıraram, ha!..

Arif kişinin xəstəliyə tutulub yorğan döşəyə düşməsinin bir səbəbi də həmin bu Ağa məsələsi idi. Fəridin isə bütün bunlar heç vecinə də deyildi. Anası bir neçə il bundan qabaq elə Fəridin dərdindən öldü. Ata-bala tək qaldılar. Az sonra atası da xəstələndi. Bir dəfə dərsə gedəndə Arif dayının yanına qalxdım. Anam tapşırmışdı ki, bir onun halını öyrən. Halını soruşdum:

Bir xəstə ki, Fəridin ümidinə qala onun halı necə olar?

. Hər dəfə Fəridin acizliyindən, fərasətsizliyindən söhbət düşəndə Arif dayı deyərdi:

-Görəsən, harda yanlışlığa yol vermişəm? Bunun dərdi axırda məni öldürəcək.

Dərindən ah çəkər, yox bundan "Fatıya tuman olmaz"- deyərdi.

Arif dayı mənə öz həyatı ilə bağlı çox əhvalatlar söyləyib, amma hər şeyi yadda saxlamaq, hər şeyi də yazmaq olmur. Hər söhbətində bir xoşagəlməz adamdan danışanda Fəridə bənzədərdi:

-Bax, bizim bu fərsiz, bivec  Fərid kimi.

Bu söhbətlərin birini ondan necə eşitmişəmsə eləcə də oxucularıma çatdırıram. Arif dayı danışırdı:

-Bir dəfə bağ qonşumuz məni oğlu üçün  rayonların birinə elçiliyə dəvət etdi. Biz 12 nəfər adam bir alabaş avtobusu sifariş etdik. Qonşum qız alacaq oğlunu da bələdçi kimi bizə qoşmuşdu. (Bu cümləni Arif kişi xüsusi bir tonla dedi və bu zaman Fəridə işarə etdi. Bildirmək istəyirdi ki, bu oğlan da Fəridən heç nə ilə fərqlənmir). Nə başınızı ağrıdım, getdik, indi mənim adını unutduğum bir kənddə yekə bir darvazanı döydük. Cavan bir oğlan qapını açdı:

-Kimi istəyirsiz?

-Bakıdan Sizə qonaq gəlmişik.

-Xoş gəlmisiniz, bircə dəqiqə gözləyin, qoy itləri bağlayım.

Bizim intizarımız uzun çəkmədi. Heç bir dəqiqə keçmədi, bizi içəri aldılar. Evin yiyəsi bizi içəri alan oğlana amirənə tərzdə dilləndi:

-Cəld atı çölə sür, bir yekə toğlu gətir, qonaqlar üçün kəs. Biz evin artırmasında oturub pürrəngi samovar çayı içdik. Kişi bizimlə şirin söhbət edir,

ordan-burdan danışırdı, amma bura gəlişimizin məqsədini soruşmurdu. Biz-Bakı kənd əhli yaxşı qoyun itinə maraqlıyıq. Ona görə də, qoyun soyulub kabab bişincəyə qədər tövlədə qoyun itlərinin balalarına doyunca tamaşa etdik. Gəlişimizdən iki saat keçməmişdi ki, bizimçün gözəl bir süfrə açdılar. Həmin cavan oğlan qapının ağzında ayaq üstə durub atasının hər bir əmrini danışıqsız yerinə yetirirdi. Biz yeyib-içdik. Ortaya çay gəldi. Yalnız bundan sonra kişi gəlişimizin məramını soruşdu:

-Bakıdan evimizə xoş gəlmisiniz. Gözüm üstə yeriniz var. İstədiyiniz qədər qonağım ola bilərsiniz. Amma yəqin ki, gəlişiniz səbəbsiz deyildir. Buyurun, eşidirəm sizi.

Qonşum məqsədimizi açıqladı.

-Bizim oğlan sizin qızla bir-birini bəyəniblər; gəlmişik ki, Allahın istəyi ilə qızınızı oğlumuza istəyək.

Kişi sona qədər onu diqqətlə dinlədi, çayından bir qurtum içib dedi:

-Çox da gözəl etmisiniz. Nə olar?-Bir qız bir oğlanındır, amma bizim adətimiz var. Bilmirəm siz adətlərimizdən xəbərdarsızmı? Biz, qızı başlıq alıb veririk.

Biz gözləmədiyimiz cavabdan təəccübləndik. Hətta dodaqaltı donquldananlar da oldu:

-Qızı da satmazlar ki. Bunlar neçənci yüzildə yaşayırlar?

Kişi isə iti nəzərlərini bir-bir üzümüzdə gəzdirir, bizim hər birimizin nə fikirləşdiyini bilmək istəyirdi. Bir neçə dəqiqə sükutla keçdi. Nəhəyat ev yiyəsi sükutu pozdu.

-Görürəm sözüm xoşunuza gəlmədi. Baxın, o qapıda dayanıb mənim əmrimi gözləyən oğlumdur. Mən onun anasını bir ətək başlıq pulu verib almışam. Ondan dünyaya gələn uşaq da gözünüzün qabağındadır. İndiyə qədər mənim yanımda oturmayıb. Üzünü oğlanın atasına tutub dedi:

-Amma sən oğlunun anasını başlıq parasız almısan, ona görə də oğlun sənə qoşulub özü üçün elçiliyə gəlib.

Burada Arif kişi üzünü mənə tutub dedi:

-Bilirsənmi, necə vəziyyət alındı?! Heç birimiz bir söz tapıb danışa bilmədik. Görək, nə fikirləşərik deyib ordan ayrıldıq!?. Qonşumuzun oğlu isə qabaq oturacaqda əyləşib lap bizim Fərid kimi atası ilə mübahisə edirdi. İndi, ay bala, qızı gərək başlıqla alasan ki, qədrini biləsən. Yoxsa bizim bu Fərid kimi avaralar nə biləcək qızın qədrini?..

Bəli Arif kişi hər dəfə başına gələn əhvalatlardan mənə danışardı, amma dediyim kimi onların hamısı yadımda qalmayıb. Elə deyirəm ki, mövzudan yayınmayım, olmur ki, olmur...

...Oyun öz tempi ilə davam etməkdə idi. Məgər oyuna o qədər aludə olmaq lazım idi ki, doğma ataya hay verməyəsən? Axı, onu çağıran səs doğma

atasının səsi idi. Uzun zamandan bəri xəstə yatan atasını Fərid başlı-başına qoyub, səhər gedib bir də axşam gəlirdi. Atasının onu min əzab-əziyyətlə böyüdüb boya-başa çatdırmasına baxmayaraq, o atasının etdiyinə qarşılıq sayğısızlıq edir, cavab qaytarırdı. Adi bir futbol oyununu da ondan yüksək tuturdu.

Şərhçi ilk bölümün başa çatdığını bildirdi. Fərid ekranın qarşısından durub, o biri otağa keçdi:

Bu kişi də ki, canımı boğazıma yığıb.

Atası yatmışdı, ağır-ağır nəfəs alırdı.

-Yaxşı ki, yatıb,-Fərid düşündü. İkinci bölümdə məni rahatsız etməz.

Nəhayət cansıxıcı reklamlar sona çatdı. II bölüm başladı. Yenə öncəki həyəcan, öncəki maraq!..

Fərid diqqətlə oyunun gedişini izləyirdi. Hər iki komanda böyük səylə oynayırdı. Komandaların hər birinə qələbə lazım idi. Oyunçular üç xalı qazanmaq üçün dəridən qabıqdan çıxırdı. Bu ara qonşu otaqdan yenə atasının səsi gəlirdi.

-Su..., bir içim su.

Xəstə qocanın çağırışları yenə də cavabsız qaldı. Az sonra qoca sonuncu gücünü toplayıb çağırdı:

-Oğlum! Bir içim su ver mənə, ciyərim yanır...
Səs ara verdi. Deyəsən qoca çağırmaqdan yorulmuşdu. Oyunun sonlarına yaxın oyunçular sanki yaşamaq uğrunda qladiatorlar kimi savaşırdı.

Və budur, oyun sona çatdı. Fərid ərinə-ərinə yerindən qalxdı. Televizoru söndürüb, atası yatan otağa keçdi. Atası sakit-sakit yatmışdı. Ancaq bu yuxu öncəki yuxudan fərqli idi, çox fərqli...

O bir daha su istəməyəcəkdi, heç nə istəməyəcəkdi. O, oğluna elçiliyə də gedə bilməyəcəkdi, ondan başlıq da istəməyəcəkdilər, o toy da görməyəcəkdi...

## Yanan ocaq

Kitab oxumadan yuxulaya bilmədiyim üçün yenə də adəti üzrə masanın üstündəki kitabların birini, bu dəfə Xocalı faciəsinin qəhrəmanlarından bəhs edən kitabı götürüb çarpayıma uzandım. Bir müddət oxudum. Həmişə olduğu kimi kitab oxuya-oxuya gözlərim qeyri-ixtiyari olaraq yumuldu. Və birdən özümü mənə heç də tanış olmayan bir aləmdə hiss etdim. İnsanmı idim, ruhmu idim-bilmirdim. Hər halda yol boyu qarşıma çıxan tək-tək adamları salamlayarkən onların məni görməməsi, önəmsəməməsindən belə nəticəyə gəldim ki, gözəgörünməzəm. Ətrafımda hamını, hər şeyi görsəm də məni heç kim görmür və mən ətrafımda kiməsə, nəyəsə təsir etmək iqtidarında deyildim. Gecənin zil qaranlığında kiçik bir çay evinin qarşısından keçib, sağa-şəhər mərkəzinə aparan yola döndüm. Burada böyük qələbəlik vardı. Ayaq saxlayıb şəhər camaatı ilə həmsöhbət olmağa çalışdım. Birdən hiss etdim ki, bunlar nəinki məni görmür, heç səsim də eşitmir. Bəlkə də mənə elə gəlirdi. Hər halda onlar məni eşitsələr belə sözlərimə cavab vermirdilər. Ağsaqqalların bir neçəsinin arasında qızğın söhbət gedirdi. Onların danışıqlarından Xocalıda olduğumu anladım. Onlardan biri:

-Eşitmisizmi, deyirlər artıq ermənilər 366-cı alayın silahlarını alıblar, Xocalını yer üzündən siləcəklər!? Bunu edəcəklərinə heç bir şübhəniz olmasın. Bir tədbir tökmək lazımdır. Bəs bu körpə uşaq, gəlin və qocaların halı necə olacaq!?

Öz aralarında Mirzə kimi çağrılan ağsaqqallardan biri:

-Mən də bu barədə eşitmişəm. Deyirlər 366-cı alay öz silahlarını öncə bizə təklif edib amma bizimkilər bu silahları satın almaqdan imtina edib.

Ağsaqqallardan hərbi paltarda olan biri:

-Dünən aeroporta getmişdim. Vəziyyətimizin gərgin olmasını Əlif də dedi...

Onların həyəcanlı baxışlarını izləyə-izləyə mən də həyəcanlanırdım. Əllərinə toxunub:

-"Darıxmayın, sizə kömək gələcək, Bakı sizi darda qoymaz"-deyirdim.

Amma çox qəribə idi ki, kimə toxunudumsa hiss etmirdi. Nə edə bilərdim, əlimdən heç nə gəlmirdi. Çox istərdim, onlara kömək edim, heç olmazsa təsəlli verim. Amma necə? Bir anlıq düşündüm; bura necə gəlib çıxdığımı xatırlamağa çalışdım. Nə qədər çalışdımsa gəldiyim yolu xatırla bilmədim. Bura uçaqlamı, dikuçarlamı gəlmişdim; yoxsa avtobuslamı, qatarlamı? Hər halda göydən zənbillə düşməmişdim. Xəstə təxəyyülümlə dərk edirdim ki, buraya qatarla gələ bilməzdim. Çünki, Qarabağ dağlıq ərazi olduğundan buraya dəmir yolu çəkil-

məyib. Şəhərin giriş və çıxış şose yolları isə artıq ermənillərin nəzarəti altında idi. Xocalıya avtobusla gəlsəydim belə çoxdan ölmüşdüm. Uçaqla gəlmək isə ümumiyyətlə mümkün deyildi. Ermənilər hər uçağı çox asanlıqla vurub yerə sala bilirdilər. Deyəsən yavaş-yavaş artıq bir ölü olduğumu və ruhdan ibarət olduğumu anlamağa başlamışdım. Amma, əgər ölü idimsə ruhum Xocalıya niyə gəlirdi? Axı indi mən ya uca göylərdə pərvaz etməli, ya da yerin dibinə, iblislər aləminə enməli idim. Bir də, məni kim öldürmüşdü axı? Öldürsəydilər yəqin, yadımda qalardı. Belə şeyi unutmaq olmaz ki! Qısası, heç nəyi xatırlamır, yadıma sala bilmirdim. Bəlkə bir az yatım?-dedim,-dincəlsəm bəlkə bir şey xatırlaya bildim. Amma bu qarışıq düşüncələr yuxumu da əlimdən almışdı. Şəhər camaatı çoxdan bəri, bu mənfur düşmənlər torpaqlarımıza göz dikəndən şirin yuxuya həsrət idi. Gecənin bir aləmi idi, haradasa saat 3-ə yaxın olardı. Onsuz da səksəkə içərisində yatan şəhər camaatı arabir atılan silahların səsindən tez-tez diksinirdi. Mən isə bir sərsəri kimi şəhəri dolaşıb gəzirdim. Hava limanına tərəf getdim. Burada pəhləvan cüssəli biri:

-"Alo, alo, Bakı, cavab ver"-deyərək var-gücü ilə qışqırırdı. Xocalının taleyi üçün bərk narahat idi. Amma onu heç kim eşitmir, səsinə hay vermirdi. Bu adamı tanıdım. Əlif Hacıyev idi.-Xocalı qəhrəmanı! Haqqında eşitmişdim ki, erməni liderləri-

nin heç birini Azərbaycandan icazəsiz Xocalıya buraxmırdı. Özünü harda gördüyümü xatırlaya bilmədim. Hava limanını arxada buraxıb bir müddət getdim, bir təpəyə yetişdim. Bu təpəni aşandan sonra yolun qırağındakı yarıyıxılı bir lövhə gördüm. Lövhədən "Əskəran" oxudum. Uzaqdan böyük bir qaraltı gördüm. Qəribə idi, geçə zil qaranlıq olsa da, mən bu kölgələri aydın sezirdim. Hətta bir az qorxdum da. Özümü necə itirdimsə tez yaxınlıqdakı ağacın arxasına keçdim. Amma tez də xatırladım:

-Kimdən çəkinməliyəm axı, məni ki, heç kim görmür?

Cəsarətimi toplayıb bu qaraltıya doğru yol aldım. Mən bu kölgəyə addım-addım yaxınlaşdıqca qaraltılar daha da böyüyürdü. Bir az daha irəlilədim və qaraltıların üç nəfər olduğunu gördüm. Öncə üzünü tük basmış bu adamları azərbaycanlılar zənn etdim, amma tez də fikrimdən daşındım.

-"Azərbaycanlıların Əskəranda nə işi var. Hər tərəfdən savaş qoxusu gəlir. Və bir də bunlar bir-biriləri ilə erməni dilində nə isə pıçıldaşırdı. Onlara daha da yaxınlaşıb sözlərinə qulaq asdım. Birdən anladım ki, mən onların dilini başa düşürəm. Danışıqlarından anladım ki, erməni kəşfiyyatçılarıdır. Son dəfə xəlvəti Xocalıya gedib şəhərin vəziyyəti haqqında məlumat toplamaq tapşırığını almışdılar. Komandirləri onları buraya şəhərin son vəziyyəti, qida ehtiyatı və başqa amillər barədə bilgi almağa

göndərmişdi. Onlara lap yaxınlaşıb keçib aralarında oturdum. Kəşfiyyatçılardan biri o birlərinə deyirdi:

-Ara, mən Xocalını görməmişəm, deyirlər gözəl yerdir.

Kəşfiyyatçılardan digər ikisinə nisbətən daha kobud və amansız görünən, ətrafdan yığdığı çör-çöplə ocaq yandırmağa çalışan və yoldaşlarının Hayk deyə səslədikləri erməni dedi:

-Görək sən bu sözləri neçə gün dilinə gətirə biləcəksən?

-Niyə ki?

-Axmaq. Yoxsa sən bizim şəhəri viran qoyacağımızdan xəbərsizsən.

-Doğrudan, aaa...

Kəşfiyyatçılardan adını təyin edə bilmədiyim üçüncüsü:

-Heç adamın əli gəlmir ki, bu cür gözəl yeri viran qoysun.

-Sən narahat olma. Bu müvəqqəti olacaq. Biz bu şəhəri dağıdıb sonra yenidən quracağıq. Amacımız buradakı türk izlərini məhv etməkdir. Yeni abidələr ucaldacağıq. Bundan da şərəfli bir şey olarmı? Artıq Böyük Ermənistanı qurmağın vaxtıdır. Bu şəhərdə erməni qəhrəmanlarımızın abidələrini ucaldacağıq.

Qəribə burası idi ki, onlar türklərin min illər boyu böyük zəhmətlə yaratdğı abidələri soyuqqanlı, heç nə olmayıbmış kimi dağıtmaqdan danışır, “Sarı

gəlin" mahnısını zümzümə edirdilər. Aşot isə ya mahnının sözlərini bilmədiyindən, ya da bu mahnının Azərbaycan mahnısı olduğunu bilib sanki, ar edir, dostlarının əksinə olaraq bu sözləri sayıqlayırdı:

-Türklər düşmənlərimizdir, onlar Böyük Ermənistanın düşmənləridir.

Bununla yetinməyən Aşot erməni dilində türkləri ağır söyüşlərlə söyürdü.

Bu məni çox sıxırdı artıq gözəgörünməzlik mənim əsəblərimi tarıma çəkmişdi. Bir an öncə gözəgörünməz olub ermənilərin bütün hərəkətlərini onlara hiss etdirmədən müşahidə etməyimə sevinsəm də artıq bu mənə əzab verirdi. Bir neçə dəfə ocağın üzərinə yüyürüb ayaqladım, söndürməyə çalışdım, amma bacarmadım. Elə bil ki, Xocalının gələcək müsibəti bu mənfur ocağın ətrafında hazırlanırdı. Mən gözəgörünən olub bu əclafları qırıb çatmaq istəyirdim. Lap elə özüm də qoy şəhid olaydım! Amma görünür ki, bütün bunlar heç də mənim istəyimlə bağlı deyildi. Bir yandan da ermənilərdən öyrəndiyim sirri-az sonra Xocalının yer üzündən silinəcəyini özümüzkülərə çatdıra bilmədiyimdən hiddətlənirdim.

Erməni kəşfiyyatçıları daha bir neçə dəqiqə kəndin içərisində hərləndilər. Hava həddindən artıq qaranlıq idi. Amma sübhün açılmağına az qalırdı. Ermənilər Xocalının kəndarına qədər gəlib çatdı-

lar. Bir neçə dəqiqəlik kəşfiyyatdan öyrənə bildilər ki, şəhər heç də güclü müdafiə olunmur, silah-sursat azdır, ərzaq isə tükənmək üzrədir, sonra geri qayıtdılar. Artıq onlar şəhərin tam müdafiəsiz, silahsursatrsız olduğunu, qıraqdan heç bir dəstək almadıqlarını yəqin etmişdilər. Şübhə yox idi ki, onlar peşəkar idi və öz işlərinin öhdəsindən bacarıqla gəlirdilər. Mən bu şəhərin əhalisini köməksiz qoyub onları taleyin ümidinə buraxanlara nifrət etdim.

Birdən ağlıma gözəl bir fikir gəldi.-Bəlkə bunları təqib edim!? Onsuz da məni görmürlər. Bəlkə onların hücumlarına mane olmağa çalışım?-Tez də anladım ki, bunun heç bir anlamı yoxdur. Onları izləmək fikrindən daşındım. Burada yolun qırağındakı mamır bağlamış bir daşın üzərində oturub Xocalının aqibətini düşünürdüm. Necə dərin düşüncəyə dalmışamsa (bəlkə də dərin yuxuya getmişəm) nə qədər vaxtın keçdiyini təyin edə bilmədim. Top səslərinə və bir də rus-erməni sözləri qarışıq haykūyə oyandım. Rus-erməni dəstələri Xocalını üzük qaşı kimi mühasirəyə almışdılar. Şəhəri viran qoydular. Ətraf qan gölünü xatırladırdı. Neçə-neçə ailəni məhv etdilər, insanları körpə, qoca, hamilə demədən güllələdilər. Mən əziyyətlə öldürülmüş insanların arasında bir müddət gəzib dolaşdım, gözləri çıxarılmış, əzaları kəsilmiş çoxlu insanlar gördüm. Heç nə edə bilmirdim, yalnız bu dəhşəti seyr etməkdən savayı. Elə bil ikinci dünya savaşı idi.

Erməni zabitlərindən biri:

-Ara, qırın, dağıdın bu köpək uşağını, heç kimə rəhminiz gəlməsin. Bircə nəfəri belə sağ qoymayın. Onları ölümün ən pis şəkilləri ilə öldürün.

Demək olar, bütün şəhər əhalisinin əksəriyyəti məhv edilmişdi. Bu arada körpə uşaq səsi eşitdim. Deyəsən yaxınlıqdakı evlərin birindən gəlirdi.

Əsgərlərdən biri:

-Ara, Aşot oradan səs gəlir, eşidirsənmi? Uşaq ağlamasına oxşayır. Deyəsən axı kimisə öldürməyi unutmuşuq.

Tezliklə körpənin səsi kəsildi. Aşotun uşağı öldürdüyünü yəqin etdim.

Hərbçilər qarşılarına çıxan hər şeyi qarət edib otaqlarından yalnız biri hazır olan qırmızı kərpicdən tikilmiş bir evə yaxınlaşdılar, içəri daxil oldular. Evdə Lamiyə və Həsən adlı iki uşaq var idi. Ata analarını mənfur ermənilər vəhşicəsinə öldürmüşdülər. Lamiyə Həsənə nisbətən yaşda böyük olduğundan (Lamiyənin 13, Həsənin isə 8 yaşı vardı) ayaq səslərini hiss edən kimi onların hərbçilər olduğunu yəqin edincə, tez Həsəni dolabda paltarların arasında gizlətdi və ermənilərin diqqətini Həsəndən azdırmaq üçün tez artırmaya çıxdı və erməni əsgərlərini görüncə:

- “Vəhşilər, siz mənim ata-anamı öldürdünüz”- deyə fəryad qopardı.

Ermənilərin biri avtomatın qundağını var gücü ilə Lamiyənin başına ağır zərbə endirdi. Yazıq qızcığaz anındaca yerə sərildi, hərəkətsiz uzanıb qaldı. Həsən isə əsgərlər evdən aralanmayınca səsini çı-

xarmadı. Dolabın qapısını açıb Həsəni səslədim. Amma Həsənin səsi çıxmırdı. Qorxudan dilinin tutulduğunu, ya da paltarların arasında qalıb boğulduğunu zənn etdim. O qədər həyəcanlı idim ki, Həsənin məni eşidə bilməyəcəyini unutmuşdum.

-Bir müddət sonra balaca Həsən özünə gəldi, tez qaçıb həyətə düşdü. Artıq gecənin bir yarısı idi, göz gözü görmürdü, hara gedəcəyini də bilmirdi. Birdən uşaq uzaqdan bir ocağın işığını görüb, var gücü ilə ocağa sarı yüyürdü. O, yürüyür, ocağın çevrəsindəkilərin kimlər olduğunun fərqinə varmadan yüyürürdü... Mən isə orada erməni hərbçilərinin olduğunu aydın görürdüm. Ocağa bir neçə addım qalmış düşmən gülləsi Həsəni yerə sərdi. Elə bu zaman qolumda qəfil bir istilik hiss edtim. Elə bil əlim yanırdı. Tez yuxudan ayıldım.

Həmin gecə işıqlar yanmırdı, kitabı şam işığında oxuyurdum. Görünür, adəti üzrə yenə kitab oxuya-oxuya məni yuxu aparıb. Şam isə çox yəqin ki, yuxuda etdiyim əsəbi əl-qol hərəkətləri nəticəsində yanımdakı stolun üzərinə yıxılmışdı, amma sönməmişdi. Bir az da yuxudan gec ayılsaydım yanan şam masanın üzərindəki kitab-dəftəri də alışdırar, çarpayıma keçərdi. Yaxşı ki, yuxudan tez ayıldım.

Xocalını düşmən tapdağı altında görmək mənim üçün çox ağır idi. Sevindim ki, gördüklərim yuxu imiş.

## Üstüaçıq ev

*"İnsan zəhərli ağac əkdiyini onda bilir ki, onun meyvəsindən özünə yedirirlər".*
*"Kəlilə və Dimnə"dən*

Şəhərdə işlərimiz pis getmirdi. Atam işləyir maaş alır və biz bu maaşla bal kimi keçinirdik. Anam bu pulu elə ehtiyatla xərclərdi ki, hələ beş-on manat qənaət edib bəd günlər üçün "qara kisəyə" atardı. "Baxma, haçansa lazım olar"-deyərdi. Atam ona maaşla yaşamağı irad tutanlara: "Heyif deyil maaşlı iş. Uzaq başı evdə pul olmayanda dostdan, tanışdan-bilişdən borc alırsan. Bilirsən ki ayın başı maaş alacaq, götürdüyün borcu ödəyəcəksən". Hələ bina evində yaşamasaydıq daha yaxşı dolanardıq. Burda isə yaşamaq kənd yerində yaşamaqdan qat-qat çətin idi. Heç nə əkib-becərməyə imkan olmur, hər şeyi almaq lazım gəlir.

Binamız şəhər mərkəzindən o qədər də uzaqda deyildi. Avtobusla şəhər mərkəzinə 10 dəqiqəyə çatmaq olardı. Deməк olar, hər gün qonşu blokların uşaqları-həmyaşıdlarımla futbol oynamağa gedərdik. Binamızın qarşısındakı açıqlıqda özümüzə bir futbol meydançası da düzəltmişdik. Ətrafdan iki böyük daşı yuvarlada-yuvarlada gətirib meydança üçün qapı da qoymuşduq. Hər axşamüstü komandalara bölünüb futbol oynayardıq. Bəzən topla mey-

dançanın qapısının əvəzinə qonşuların qapı-pəncərələrini hədəf alırdıq. Bir dəfə top tərslikdən binanın ən qaradinməz, acıdil sakini olan Badam xalanın pəncərəsinin şüşəsini sındırdı. O aşağı düşüb öz "xoş arzular"ını, "dilək"lərini bizə söyüşlə çatdırdı, indiyə qədər heç bir yerdə eşitmədiyimiz sözlərlə bizi "feyziyab etdi". Ümumiyyətlə əgər qarğış və söyüş üzrə yarış keçirilsəydi Badam xala şübhəsiz, orda birinci yeri tutardı. Ona görə də qonşular mümkün qədər onun ağzını açmamağa çalışırdı. Ağzı açılan kimi ən çox sevdiyi qarğışı səsləndirərdi: "Səni görüm göz yaşların çörəyinə yavannıq olsun". Çox gur səsi vardı Badam xalanın. Həmişə fikirləşərdim, nə əcəb bu arvad ulduz yarışmalarına qatılmır..? Bir az da "sms" qazansa asanlıqla ulduz ola bilərdi. Nə isə. Tez evə qaçaraq pul götürdük və bir şüşədüzəldən tapıb şüşəni saldırdıq.

5-6 yaş böyük uşaqlar bizimlə düz gəlmirdilər. Gah oynayarkən bizim qışqırmağımızı ya da bir başqa bəhanə tapıb bizə ilişirdilər. Onlardan Tarxan adlı birisinin üzünü görməmək üçün mümkün olan hər şeyimi verməyə hazır idim. Tarxangilin ailəsi çox yaxşı yaşayırdı. Deyilənə görə atası iş adamı idi.

Tarxan çox da yaraşıqlı deyildi. Amma nədənsə qızlar ona heyran idi. Bilirsiz, indi elə qızlar var, onların xoşuna gəlmək üçün ya gərək bayağı mahnılar oxuyan müğənni olasan, ya da yersiz hoqqa-

larla onları güldürməyi bacarasan. Tarxan isə ikincini çox gözəl bacarırdı. O, hər gün binanın həyətinə bir qızla daxil olur, bununla fəxr edirdi. İş orasında idi ki, qızlar da Tarxanın onları aldatdığını bilə-bilə ona qoşulur, özü demişkən onunla fırlanırdılar. Tarxanın atası da özü kimi lovğanın biri idi. Axşam vaxtları binanın həyətindən keçərkən qonşularla görüşməz və salamın cavabını da ərinə-ərinə alardı. Pul gözlərini elə tutmuşdu ki, heç kimi bəyənmirdi. "Bir gün sizin əlinizdən burdan köçüb gedəcəyəm" deyirdi. Halbuki, binamızın sakinləri çox yaxşı adamlardı və Tarxanın hər gün məhəlləyə bir neçə qızla gəlməsinə onlar qonşuluq xatirinə dözür, bir gün onun islah olacağına inanırdılar. Tarxan isə macəra dolu günlərini özü demişkın "bala-bala" ard-arda sıralamaqda idi. Onu tək görmək mümkün olmurdu. Hər dəfə də qolunda bir qız olurdu.

Bizdən iki mərtəbə yuxarıda Akim adlı oğlan yaşayırdı. Hansı xarici şirkətdəsə işləyirdi. Çox tərbiyəli və nəzakətli bir cavan idi. Akimi məhəlləmizdə sevməyən yox idi. Tarxanın bu hərəkətləri hiss edirdim ki, yavaş-yavaş Akimi də özündən çıxarır. Bir dəfə Akim Tarxandan soruşdu:

- Bura bax,  sən bu qızları necə yoldan çıxarırsan. Yəqin tez-tez ingilislər demiş "centlmen" hərəkətlər edirsən, eləmi?

-Yox, əşşi. Sən də danışırsan da... Sən deyən o "centlmen" hərəkətləri adətən 30 yaşdan yuxarı qızlar xoşlayırlar. Mənim nəyimə gərəkdir "centlmen" hərəkətlər. 30-dan aşağı yaşı olan qızların isə bəlkə yüzdən birini belə şeylər maraqlandırır. Mən deyən qızlar isə daha çox yersiz sözləri, şit hərəkətləti və bir də lovğalığı xoşlayırlar. Onların nəzərində mən səndən yaxşı oğlanam. Bilirsən niyə? Ona görə ki, mən hər gün bir neçə qız dəyişməyi bacarıram. Bax mənə öyrən. Öləndə goruma aparmayacağam ki! İstəyirsən sənə də bir-ikisini düzəldim.

-Yox, sağ ol. Mən elə şeylərdən uzağam.

-Özün bil. Sonra peşman olanda məni tapmayacaqsan.

Tarxanın "igidliyi" təkcə qızlarla tez ünsiyyət qurmaq bacarığından ibarət deyildi. Özünün narkotikadan istifadə etdiyi bəs deyilmiş kimi hələ məhəllə uşaqlarını da bu yola cəlb etməkdən çəkinmirdi. Hər gün tində məhəllə uşaqları üçün universitet professoru kimi "narkotikanın əsasları"ndan mühazirə oxuyurdu.

-Uşaqlar bilirsinizmi bu çox gözəl bir şeydir. Ondan istifadə edəndən sonra bütün problemləri unudursan, elə bil yenidən doğulursan. Qanadlanıb göyə qalxırsan və açıq səmada "boing" təyyarələri ilə yarışa çıxırsan. Elə ki həzzin vaxtı qurtardı meteorit daşı kimi göydən yerə çırpılısan.

Bütün narkotik vasitələrin istifadə yollarını bilirdi. Atasının başı pul qazanmaqdan, anasının isə şəhərin gözəllik salonlarını gəzib özünü bəzəyib-düzəməkdən açılmırdı.

Qonşu binada hüzür düşmüşdü. Anam məni Tarxan gilə göndərdi. “Get gör Nərgiz xala (Tarxanın anasının adı Nərgiz idi) hüzürə gedəcəksə gəlsin bir yerdə gedək”-dedi. Qapı açıq idi. Bir-iki dəfə çağırdım, amma  hay verən olmadı. Ərkim çatan ev olduğu üçün içəri daxil oldum. Tarxan mətbəxdə xörək qaşığında nə isə qaynadırdı. Mən lal-dinməz durub baxırdım. Az sonra o qaynatdığını şpirislə damarına yeritdi. Tez qorxub aradan çıxdım.

Atası bir yandan qazanıb daşımaqda, Tarxan isə atasının daşıdıqlarını bazarda xəlvətcə dəyər-dəyməzə satıb narkotikə xərcləyirdi. İndi evdə yalnız göz önündə olan əşyalar qalmışdı. Evdə itən əşyaların hesabı aparılanda o, “xəbərim yoxdur”- deyirdi. Artıq onunla bir yerdə “fırlanan” qızların bir neçəsi də narkotikaya aludə olmuşdu. Tarxanın özü də əldən düşmüşdü. Gözləri şumlanmış əkin sahəsi kimi qırışlarla dolu idi. Valideynləri isə zövq-səfa ilə həyat sürür, heç nəyi veclərinə almırdılar. Tarxanı başlı-başına buraxmışdılar. Bir gün atası bütün bunlardan xəbər tutanda artıq gec idi.

Bir zamanlar atam Rusiyada çalışırdı. İşi elə idi ki, tez-tez Bakıya gələ bilmirdi. Ancaq telefonla əlaqə saxlayır və bizə vaxtlı-vaxtında pul göndərir-

di. Biz səbirsizliklə məktəbdən buraxılmağımızı gözləyir, yay tətilini anam və qardaşımla birlikdə atamızın yanında-Bryanskda keçirərdik. Növbəti yay tətilini atamızla keçirib yeni dərs ilinə bir neçə gün qalmış Bakıya qayıdırdıq. Bryanskdan Bakıya bir başa qatar olmadığından biz Oryol stansiyasında düşür, bir neçə saat Moskva-Bakı qatarını gözləyirdik. Birdən gözləmə zalında Tarxanı gördük. Sərxoş idi. İki qoca rus qadınının (Babulyanın) arasında oturub əməlli-başlı meymunluq edirdi. Özünü yuxulu kimi göstərib başını bir babulyanın çiyninə qoyur, o itəliyəndə isə o biri qadının çiyninə qoyurdu. Hər iki qoca qadın bundan hirslənir, bu mənzərəyə tamaşa edənlər isə gülürdülər. Babulyaların biri milis çağırdı. Tarxanı apardılar. Sonrası necə oldu, bilmədim. Onu ikinci dəfə qatarın gəlişini elan edəndə perronda gördüm. Digər bir qatarın bələdçisindən soruşurdu:

-Sestra, etot poezd kuda idiot?

Bələdçi onun sərxoş olub, rus dilinin qol-qıçını sındırmasına gülürdü.

Tarxan elə bilirdi ki. Bakıdakı kimi burda da qızlara, qadınlara bacı demək olar. Ağlı kəsmirdi ki, burda sestra tamam başqa məna bildirir.

Tərslikdən qatarda da bizimlə eyni vaqona düşdü, yeri bizdən iki aralıq aralıda idi. Yol boyu vaqondakıları bu dünyaya gəlişlərinə peşman etdi. Ən çox bir müəllimə ilişmişdi. Deyirdi ki, siz məktəb-

də dərs keçmirsiniz, şagirdlərdən pul alırsınız. Müəllim isə özünə məxsus səbirlə, nəzakətlə onu özündən uzaqlaşdırmağa çalışırdı.

Tarxan bu arada bir xeyli yoxa çıxdı. Qayıdandan sonra yerində oturub bir xeyli gözlərini bir nöqtəyə zillədi. Haçandan-haçana özünə gəldi. Artıq hava qaralır, yolboyu gözəl mənzərələr görünməz olurdu. Bu dəfə müəllim ondan soruşdu.

-Evlənmisənmi, uşaqların varmı?

Tarxan bu suala bir xalq mahnısı ilə cavab verdi

*Babamın parası yox*
*Məni evləndirməyə.*

Əlbəttə mən onun yalan danışdığını bilirdim. Çünki, bir neçə il bundan qabaq o, qonşu binada bir qızla evlənmək xəyalına düşmüşdü. Bunu atasına deməkdən utandığından onu hind kinosuna aparmışdı ki, atasını mədəni surətdə başa salsın. Atası da bunu başa düşmüş, lakin sonralar qızın valideynlərinin danlağı ilə üzləşməmək üçün avara oğlu üçün elçi düşməkdən vaz keçmişdi.

Bir neçə ildən sonra atam Rusiyadakı işini başa çatdırıb həmişəlik yanımıza qayıtdı. Az sonra biz qonşu şəhərin gözəl bir  qəsəbəsinə köçməli olduq. Bu atamın işi ilə əlaqəli idi. Məsələ bunda idi ki, atamın ixtisası nadir ixtisas idi və tez-tez belə təkliflər alırdı. Bu dəfə atama yüksək maaşlı biriş təklif etmişdilər və o, bununla razılaşmışdı. Düşündüm ki, yəqin yeni qonşularımız köhnə qonşularımızdan

da mehriban olarlar. Əvvəllər yaşadığımız binanın mənzilləri üzbəüz binaya baxdığından çox darıxdırıcı idi. Burdakı binamız isə təzə tikildiyindən ətrafa ancaq qum və çınqıllarla əhatə olunmuşdu və baxıb feyz almağa elə bir mənzərə yox idi. Bir sözlə təzə mənzilimiz nə mənim, nə də qardaşımın xoşuna gəlmədi. Binanın sakinləri də bizimlə çox soyuq idilər. Bu bəlkə də qonşuların hərəsinin bir yerdən köçüb gəlməsi, bir-birlərini, o cümlədən bizi yaxşı tanımamaqları ilə bağlı idi. Hər nəsə, mənim, qardaşımın və anamın təkidi ilə atam bizə müvəqqəti verilmiş bu evdən başqa bir evə, bu dəfə həyət evinə köçürtdü.

Bu hadisədən daha bir il keçdi. Artıq mən orta məktəbi bitirib ali məktəbə hazırlaşırdım. Bir gün doğma şəhərimizə gedib əvvəlki binamızdakı dostlarımla görüşmək istədim. İlk olaraq Səlimlə qarşılaşdım. O mənə maraqlandığım hər kəs barədə məlumat verirdi. Mən Tarxanı soruşdum. Düşündüm ki yəqin indi ağıllanıb.

Səlim mənə tərs-tərs baxıb dedi:

-Eşitməmisən ki, qozbeli qəbir düzəldər? Tarxanın, bizim iş adamı hesab etdiyimiz atası sən demə narkotika ticarəti ilə məşğul imiş. Polislər narkotika satan yerdə yaxaladılar, həbs etdilər, indi cəza evindədir.

Burda mən Tarxanın atasının ”bir gün sizin əlinizdən köçüb burdan gedəcəyəm” sözlərini xatırla-

dım. Demə bir müddət sonra burdan köçəcəyi kişinin ürəyinə damıbmış.

Səlim davam etdi:

Tarxan isə atasının həbsindən sonra evdə olanqalanı da satıb iynəyə xərclədi. Bir gün həmin o aldadıb "fırlatdığı" qızların birinin qardaşı tərəfindən bıçaqlandı. Heç xəstəxanaya çatdıra bilmədik, yolda keçindi. Anası isə evi satıb yaxın rəfiqələrinin biri ilə bir yerdə yaşayır.

Yeni köçdüyümüz ev şəhərə çox da uzaq olmayan bir qəsəbədə yerləşirdi. Burada cammat yeni köçüb gələnlərə qarşı çox soyuq idi. Salam verəndə də adama elə baxırdılar ki, sanki onlara borclusan. Məhəllənin yolunun qurtaracağında üstüaçıq bir ev var idi. Sökülmək üzrə idi. Üstünü də külək aparmışdı. Hər dəfə bu evin qarşısından keçəndə qəribə hisslər keçirirdim.

Bu evin tarixi ilə çox maraqlandım. Bir dəfə yaşlı bir kişidən bu evin tarixi barədə soruşdum, öncə başını bulasa da sonradan onu danışdırmağı bacardım. O da bunları danışdı:

-Burada illər öncə yaşlı bir kişi ilə bir qadın yaşayırdı. Heç buranın adamına oxşamırdılar. Çox da halal insanlar idi. Amma övladları zay çıxdı. Onların başı xaricdə qızlara elə qarşışmışdı, ki, heç ata-analarını yada salmırdılar. Bir dəfə qocalar evdə olmayanda oğrular evlərini taladı. Uzun zaman özlərinə gələ bilmədilər. Kişi ürək tutmasından vəfat

etdi. Arvadı isə bir müddət tənha yaşadı, sonra doğulub boya-başa çatdığı kəndə yollandı. İndi bura bir xarabalıqdır. Heç kim gəlib getmir. Bu yaxınlarda eşitdim ki həyət yeni sahibinə verilib, bir-iki günə traktorla buranı sökəcəklər...

# Mündəricat

İnanıram (ön söz)............................................ 3
Kim bilir, bəlkə.............................................. 7
Uçurum........................................................ 15
Qəhvəyi pencəkli oğlan................................... 23
O qayıtdı...................................................... 34
Ehtiras.......................................................... 40
Qar.............................................................. 49
Metro............................................................ 59
Şagird........................................................... 70
Yuxu............................................................. 77
Yanan ocaq.................................................... 85
Üstüaçıq ev.................................................... 94

Yeqzar Cəfərli

# UÇURUM

*(hekayələr)*

Müəlliflə əlaqə*:* yeqzar_ceferli@mail.ru
yeqzar-c@mail.com.tr

**«Elm və Təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

*Kompüter dizayneri:* **Zahid Məmmədli**
*Texniki redaktor:* **Rövşanə Nizamiqızı**

Yığılmağa verilmiş **29.04.2012.**
Çapa imzalanmış **08.05.2012.**
Şərti çap vərəqi **6,7.** Sifariş № **108.**
Kağız formatı **84x108 1/16.** Tiraj **500.**

Kitab «**Elm və Təhsil**» nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
**E-mail: nurlan1959@gmail.com**
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.

# 108-баьла